# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 34 (3547) Cümə axşamı / 19-25 sentyabr 2024-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## Vətən müharibəsi hər zaman qürurla anılacaq



**Sevinc Alızadə,**
“Zəfər yolu” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

***27 sentyabr 2020-ci il. İşğala son qoymaq üçün Azərbaycan Ordusunun keçirdiyi əks-hücum əməliyyatından 4 il ötür. Azərbaycan əsgərinin qəhrəmanlığı, qanı-canı bahasına başa gələn, qızıl hərflərlə tarixə yazılan o böyük Zəfər Azərbaycan dövlətinin, xalqının istiqbalına yönəlik yeni yol xəritəsinin cızılması ilə nəticələndi. Artıq 4 ildir ki, dövlət, xalq həmin yolla irəliləyir. Bu, həmin yoldur ki, orada canını torpaq uğrunda qurban verən Şəhidlərimizin əbədi xatirəsinin hörmətlə anılması, qazilərimizin diqqət, qayğı ilə əhatə olunması, gələcək nəsllərə örnək bir nümunə kimi təqdim olunması ilə bağlıdır.***

*Azad olunmuş torpaqlarda şəhidlərimizin adına küçələr, parklar salınmalıdır*

Səh. 5

# Kremlin ikili oyunu

***Son günlərdə Rusiyanın Ermənistanı gizli şəkildə silahlandırdığı ortaya çıxmaqdadır. Bu azmış kimi, üzdə İrəvanla Moskva arasında süni siyasi gərginlik yaradılsa da, iqtisadi əlaqələrin, ticarət dövriyyəsinin sürətlə artdığına dair yeni statistik rəqəmlər var. O zaman sual olunur: necə ola bilər ki, Moskvaya arxa çevirən, bu məqsədlə Qərbdən yardım dilənən Ermənistan rəhbərliyi, Paşinyan hökuməti Rusiya ilə bu cür sıx əlaqələrə malikdir? Əslində, Azərbaycan hər zaman bildirir ki, İrəvan sanksiyalardan yan keçməklə Rusiyaya Qərb məhsullarını çatdıran əsas vasitələrdən biridir. Qərb də bu rəqəmləri görür. Ancaq özünə sərf etdiyi üçün gözdən pərdə asmaqla Ermənistanı Rusiyadan “qoruyacağına” vəd verir.***



Bu məqsədlə həm İrəvan silahlandırılır, həm də ciddi maliyyə dəstəyi alır. Əslində hədəfin Rusiya olmadığı bəllidir. Bütün bu siyasətin başlıca hədəfi Azərbaycandır. 30 illik işğal dövründə olduğu kimi, yenə də Qərblə Moskvanın Ermənistan maraqları üst-üstə düşür.

■ **Siyasi analitik Bəhruz Quliyev bildirir ki, Cənubi Qafqazda manipulyasiyalar, saxta ittihamlar, məqsədli təxribatlar, saxta düşmənçilik yeni xəbər deyil, Rusiya və Qərbin “Ermənistan” adlı birgə oyunlarının tərkib hissəsidir.**

Ekspert qeyd edir ki, erməniləri Azərbaycan torpaqlarına köçürən, onları lazımi və həyati əhəmiyyətli vəsaitlərlə, o cümlədən torpaq, mülk verən və sonradan Ermənistan adlı qondarma dövlət quran Qərb ölkələri və Rusiyadır:

“Bu tandemin, birgə layihənin tarixi qədimlərə gedib çıxır. Uzunmüddətli planda Azərbaycan torpaqlarında yeni xristian dövləti yaratmaq var idi və bu, qismən də olsa həyata keçirilib. Birinci Qarabağ savaşında qondarma dövlətin ərazilərini genişləndirməyi bacarmışdılar. Danılmaz faktdır ki, Ermənistanı yaradan və bu gün də bəsləyən Qərb və Rusiyadır”.

B.Quliyev xüsusi olaraq qeyd edir ki, Qərbin və Rusiyanın Cənubi Qafqazda baş verən hadisələrə münasibətinin necə olduğunu dəqiqləşdirmək üçün uzağa getmək lazım deyil, nəticəyə baxmaq kifayətdir:

“Qərb, o cümlədən Rusiya öz daxilində baş qaldıran separatçılığa qarşı çox ciddi ölçülər götürür, başqa ölkələrin ərazilərində yaşananlara isə fərqli davranır. ABŞ-də ştatların mərkəzdənqaçma prosesi dərinləşməkdədir, amma mərkəzi hakimiyyət bunun baş verməməsi üçün ən qanlı üsullara, gizli repressiyalara əl atır. Fransanın Korsikada, Yeni Kaledoniyada və digər dənizaşırı ölkələrdə azadlıq hərəkatına verdiyi təpkini, apardığı qəddar siyasəti demək olar ki, hər gün seyr edirik. Parisi ittiham edən, onun yürütdüyü siyasəti tənqid edən yoxdur. Paralel olaraq Azərbaycan ərazisindəki erməni separatçılarını həm Fransa, həm də ABŞ lazım olduğu qədər dəstəkləyirdi. Rusiyanın Cənubi Qafqaz siyasətində də İrəvana dəstək özünü bütün çılpaqlığı ilə büruzə veridi. Ukraynada aparılan müharibə səbəbindən bir-birinə düşmən olan Qərb və Rusiya Ermənistan məsələsində birgə hərəkət edirlər. Rusiya Ermənistandadır, həm də bütün mənalarda. Sərhədlərini qoruyur, ərazisində ən böyük hərbi bazaya malikdir. Bununla yanaşı, İrəvan Moskvaya düşmən olan Qərbi Ermənistana gətirir, Rusiya isə yalnız tamaşa edir. Bu, mümkündürmü? Yəni, Ermənistan məsələsində Qərblə Rusiya çəkici bir zindana vururlar.

Qərbin Ermənistanla “inteqrasiyasına” cavab olaraq Rusiya İrəvanla iqtisadi əlaqələrini son 3 ildə 2,8 dəfə artırıbsa, burada fəlsəfə axtarmağa əsas yoxdur. Dünyanın bir qütbündə düşmən olan tərəflər, o biri qütbündə dostluq edirlər. Çünki, maraqlar bunu tələb edir. Rusiyada və Qərb ölkələrində siyasət heç vaxt dəyişmir. Bunu tərəflər “Ermənistan” layihəsində bir daha sübut etdilər. Bir sözlə, Qərbin və Rusiyanın, xristian dünyasının neoşəlibçiliyi bütün imkanları və yeni planları ilə davam etdirilir”.

> “*Ermənistanı yaradan da, bu gün bəsləyən də Qərb və Rusiyadır*
>
> *Rusiya hər zaman Ermənistana siyasi, diplomatik, hərbi dəstək verib*

■ **Siyasi analitik Vüqar Dadaşov hafta.az-a bildirib ki, Qərbin Ermənistan-Rusiya dartışmasında İrəvanı sona qədər müdafiə etməyəcəyi qənaəti Ermənistanı Rusiya ilə münasibətini normallaşdırmağa vadar edib. Onun sözlərinə görə, təhlükəsizlik deyəndə, məhz Ermənistan dövlətinin fiziki, siyasi mövcudluğunun Rusiya tərəfindən tarixdən silinməsi düşünülür.**

“Təbii ki, Rusiya hər zaman Ermənistana siyasi, diplomatik, hərbi dəstək verib. Ermənistanın bir dövlət kimi də yaranması, mövcudluğu Rusiyanın xidmətidir. Ermənistan ərazisinin Azərbaycan torpaqları hesabına 9 min kvadrat-kilometrdən 29 min kvadrat kilometrə qədər genişləndirilməsinin səbəbi Rusiya, Moskvadır. 44 günlük müharibə də Rusiya Ermənistan hər cür kömək etdi, müharibəni dayandırdı, Qarabağa sülhməramlı adı ilə daxil oldu. Biz bu məsələləri həl edə bildik. Ancaq Rusiyanın Azərbaycana qarşı, Türkiyə qarşı tarixi siyasi kursu dəyişməz olaraq qalır.

Rusiyanın müəyyən dövrlərdə Azərbaycanla isti münasibəti onun düşdüyü çətin siyasi-hərbi vəziyyətinə bağlıdır. Hansı ki, müvəqqəti xarakterlidir”. V.Dadaşov hesab edir ki, Rusiyanın indi Ermənistana silah verməsi, ticarətin 16 milyard dollara çatdırılması bu ölkənin ənənəvi siyasətinin davamıdır:

“Zəngəzur dəhlizinin açılması, ona nəzarət məsələsində Rusiyanın əli daha güclüdür. ABŞ və Rusiyanın bu məsələdə üz-üzə gəlməsində Ermənistan bitərəflik nümayiş etdirəcək ki, manevr imkanlarını qorusun. Həm də sonda güclü tərəfə keçəcək.

Rusiya Zəngəzura nəzarət edərsə həm Ermənistana, həm də Azərbaycana, regiona təsir imkanlarını genişləndirəcək. Tranzit imkanlarına görə dünya iqtisadiyyatında önəmli rol sahibi olacaq”. Ekspert bildirir ki, Rusiya Baş nazirinin müavini Aleksey Overçukun Ermənistana səfərindən dərhal sonra, Fransanın Avropa və Xarici İşlər Naziri Stefan Securnetin Ermənistana səfərində əsas mövzu, təbii ki, Ermənistan-Azərbaycan arasında mümkün sülh, Zəngəzur dəhlizi ilə bağlıdır”.

✍ *Tahirə Qafarlı*

MÜSAHİB



**Azər Badamov,**
Milli Məclisin deputatı

“

■ Zəngəzur dəhlizi dünyada yaranmış yeni iqtisadi əməkdaşlıq formatının tərkib hissəsinə çevrilməkdədir

■ Bu ticarət dövriyyəsinin sürətlə artmasına səbəb Ermənistanın Rusiyanı sanksiyalardan yayındırmasıdır

■ Azərbaycan beynəlxalq hüquqa hörmətlə yanaşan etibarlı tərəfdaş imicini formalaşdırmışdır

Səh. 3

GÜNÜN FOTOSU...



Çexiya su altında...

GÜNÜN SİTATI



“ *Erməni xalqı Qarabağın Ermənistana birləşdirilməsi kimi utopik iddialarına son qoyduğunu, Azərbaycanla sülh şəraitində yaşamaq niyyətini konstitusional əsasda ifadə etməlidir* ”

**Hikmət Hacıyev,**
Azərbaycan Prezidentinin köməkçisi

KARİKATURA



Avropanın gözündə miqrant fərqi

“

## Manat sabit qalacaq?

**Pərviz Heydərov,**
iqtisadçı-ekspert

Hökumətə manatın məzənnəsinin ABŞ dollarına nəzərən 1,70 azn səviyyəsindən aşağı-yuxarı dəyişməsi sərf etmir.

Səh. 5

STATİSTİKA



■ **Ölkənin strateji valyuta ehtiyatları 8 ayda 6.1% artaraq 72.6 mlrd. ABŞ dollarına çatıb. Tədiyə balansının cari əməliyyatlar hesabında 2024-cü ilin ilk 6 ayında 2.6 mlrd.**

ABŞ dolları və ya ÜDM-in 7.5%-i səviyyəsində profisit olub. Cari hesabın başlıca komponenti olan xarici ticarət balansında 2024-cü ilin ilk 8 ayında 5.5 mlrd. ABŞ dolları məbləğində müsbət saldo qeydə alınıb.



Səh. 7

## Qalan pulu hara xərcləyək?



**Azər Badamov,**
Milli Məclisin deputatı

Müsahib

# Azərbaycan COP29-la yeni tarix yazacaq

***Bölgədə Rusiya-Qərb tandeminin Ermənistan üzərindən yeni siyasi tamaşasını müşahidə edirik. Noyabrda COP29 ərəfəsində ölkəmizə qarşı erməni kartı yenidən işə salınır və müxtəlif təxribat mahiyyətli siyasi bəyanatlar verilir. Bunların kölgəsində isə Ermənistan sürətlə silahlandırılır, hətta bu işdə Rusiya daha öncül yer tutur deyə bilərik. Müsahibimiz millət vəkili Azər Badamovdur:***

***- Region Ermənistanın sülh müqaviləsindən yayındırılması, Zəngəzur dəhlizi ilə bağlı sərgilənən ziddiyyətli münasibətlər fonunda nəyə şahidlik edir? Qərb, Avropa, Rusiya Ermənistanın sülhə gətirilməsi, Zəngəzur dəhlizinin açılması ilə bağlı hansı addımları atmalıdır?***

- Zəngəzur dəhlizi dünyada yaranmış yeni iqtisadi əməkdaşlıq formatının tərkib hissəsinə çevrilməkdədir. Avropa ilə Asiya arasındakı mövcud ənənəvi kommunikasiyalarda, nəqliyyat dəhlizlərində Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar məhdudiyyətlər yaranmışdır. Bu baxımdan, Avropa ilə Asiya arasında iqtisadi əməkdaşlığın davam etdirilməsi üçün Orta dəhlizin tərkib hissəsi olan Zəngəzur dəhlizinin açılması vacib elementlərdən birinə çevrilmişdir. Ona görə də deyə bilərik ki, bu dəhliz təkcə Azərbaycan üçün deyil, həm də müxtəlif qitələrdə yerləşən ölkələr üçün də çox vacib məsələyə çevrilmişdir. Həm də qeyd etməliyəm ki, Azərbaycanın ərsəyə gətirdiyi Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri ölkəmizin üzərindən beynəlxalq daşımaların həyata keçirilməsinin təhlükəsiz və rentabelli olduğunu sübut etmişdir. Bütün bu məsələləri nəzərə alaraq Zəngəzur dəhlizinin açılmasına beynəlxalq güclərin marağının artdığını xüsusilə vurgulamaq olar.

Zəngəzur dəhlizinin açılması həm də 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndinə öz əksini tapmışdır. Bu bənddə Azərbaycanın Qərb rayonları ilə Naxçıvan arasında manesiz keçidin yaradılması və bu keçidə Rusiya FTX sərhəd xidmətinin nəzarət etməsi nəzərdə tutulmuşdur. Ona görə də Rusiya nəzarəti ələ keçirmək, Türkiyəyə və sonra da Avropaya tranzit yüklərin daşınması üçün Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. O cümlədən Qərb bu marşruta nəzarətini öz əlinə almağa çalışır. Beləliklə, deyə bilərik ki, Zəngəzur dəhlizinin açılması zamanın məsələsidir. Bu dəhliz üzərində nəzarət mexanizminin formalaşdırılması istiqamətində ciddi rəqabətin getdiyini də vurğulamaq lazımdır. ABŞ hərbçiləri və hərbi texnikalarının Zəngəzurda yerləşdirilməsinin məqsədlərindən biri də Zəngəzur dəhlizi üzərində nəzarəti ələ almaq planlarının tərkibidir.

Ermənistan isə Zəngəzur dəhlizi ilə bağlı məsələ müzakirə olunanda nala-mıxa vurur və konkret mövqeni sərgiləməkdən qorxur. Belə ki, gah manesiz keçidin yaradılmasına razı olduğunu, gah da Ermənistanın suverənliyi çərçivəsində yol anlamı ilə nəqliyyat kommunikasiyaların açılmasını istədiyini bildirir. Üçüncü tərəfin Zəngəzur dəhlizinə nəzarət edilməsinə də razı olmadığını səsləndirlir. Ümumi nəticə olaraq qeyd edə bilərik ki, Zəngəzur dəhlizi açılacaq və inanıram ki, bu dəhlizin fəaliyyəti 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndinə uyğun təşkil olunacaq.

***- Ermənistan-Rusiya siyasi münasibətlərində "ciddi soyuqlaşma", İrəvanın qərbyönlü kursu fonunda Rusiya-Ermənistan arasında ticarət dövriyyəsinin artımı, silah təhcizatı ilə bağlı Rusiyanın Ermənistanla genişlənən əlaqələri əslində Qərb-Rusiya-Ermənistan arasında hansı oyunların qurulduğu, hansı münasibətlərdən və məqsədlərdən xəbər verir?***

- Ermənistan-Rusiya münasibətlərində ciddi soyuqlaşma görünsə də, əməldə onlar bir-birinə çox yaxındırlar. Belə ki, son vaxtlar Alen Simonyanla Mariya Zaxarova arasındakı söz güləşmələri Ermənistanla Rusiya arasında düşmənçiliyin artdığının görüntüsü yaradılsa da bunun bir siyasi tamaş olduğunu iki ölkə arasında artan ticarət dövrüyyəsində müşahidə etmək mükündür.

Belə ki, 2020-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 2,3 milyard dollar, 2021-ci ildə isə 2,6 milyard olduğu halda qərbin Rusiyaya sanksiyalar tətbiq edilməsindən sonra bu ticarət dövrüyyəsi həndəsi silsilə ilə artmaqda davam etməkdədir. Belə ki, 2022-ci ildən Qərb Rusiyaya sanksiyaların tətbiqi ilə paralel olaraq Ermənistala Rusiya arasındakı ticarət dövriyyəsi 5 milyard dolları keçmişdir. 2023-cü ildə isə bu rəqəm 7,3 milyard dollara çatmış və 2024-cü ilin 6 ayında isə bu rəqəm 8,6 milyard dollar olmuşdur. Ermənistanla Rusiya arasında yaradılmış hökumətlərarası iqtisadi əməkdaşlıq komimsiyasının iclasında Rusiyanın baş nazirinin birinci müavini Aleksey Overçuk 2024-cü ilin sonuna qədər Ermənistanla Rusiya arasındakı ticarət dövriyyəsinin 14-16 milyard dollara çatacağının gözlənildiyini qeyd etmişdir.

Burda nə baş verir? Ermənistanın iqtisadiyyatı birdən-birə bu qədər böyüdümü? Xeyr, bu ticarət dövriyyəsinin sürətlə artmasına səbəb Ermənistanın Rusiyanı sanksiyalardan yayındırmasıdır. Belə ki, Ermənistan şirkətləri Rusiyanın idxal-ixracını həyata keçirir və böyük pullar qazanır.

Qazandığı pullarla da ölkəni silhalandırırlar. Rusiyanın özünün də müharibə vəziyyətində olmasına baxmayaraq, Ermənistana "Smerş" raketləri və digər silahların tədarükünə davam etməkdədir. Halbuki Azərbaycanla Rusiya arasında 2022-ci ildə müttəfiqlik haqqında saziş imzalanasa belə, Ukrayna müharibəsi bəhanəsi ilə ölkəmizə bir patron belə satmamışdır. Bütün bunlar onu göstərir ki, Ermənistanla Rusiya arasında yaşanan qarşılıqlı ittihamlar və fikir ayrılıqları beynəlxalq ictimaiyyətin fikrini iki ölkə arasında günü-gündən böyüyən iqtisadi əməkdaşlıqdan yayındırmaq məqsədi daşıdığını hesab edirəm.

> “
>
> *Zəngəzur dəhlizi dünyada yaranmış yeni iqtisadi əməkdaşlıq formatının tərkib hissəsinə çevrilməkdədir*
>
> *Bu ticarət dövriyyəsinin sürətlə artmasına səbəb Ermənistanın Rusiyanı sanksiyalardan yayındırmasıdır*
>
> *Azərbaycan beynəlxalq hüquqa hörmətlə yanaşan etibarlı tərəfdaş imicini formalaşdırmışdır*

***- Göründüyü kimi, Rusiya Ermənistana pul qazanmaq imkanı verir, lakin guya Rusiya ilə mübarizədə olan Qərb buna göz yumur. Bu iki qütbün arasında regionla bağlı hansı razılaşma var?***

- Rusiya, ancaq Ermənistana pul qazanmaq imkanını vermir. Həm də öz idxal-ixrac əməliyyatlarının bir hissəsini Ermənistan vasitəsilə həyata keçirir. Belə ki, cari ildə Rusiya Ermənistan şirkətləri vasitəsilə BƏƏ və Honkonqa 1,8 milyard dollarlıq qızıl və 600 milyon dollarlıq brilliant daşları satmışdır. Bu baxımdan, Ermənistan həm də Rusiyaya pul qazandırır. Qərb bütün bu prosesi görsə də, səsini çıxartmır. Qərblə Rusiya arasında düşmənçilik günü-gündən böyüsə də, Ermənistanla bağlı məsələ ortaya gələndə onların mövqeləri üst-üstə düşür. Bu da Qərbin riyakar mövqeyindən irəli gəlir.

***- Ermənistan hələ də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və AİI üzvü olaraq qalır. Onun ərazisində Rusiya hərbçiləri və sərhədçiləri yerləşməkdə davam edir...***

- Ermənistanın KTMT tədbirlərində iştirak etməməsi və qərbyönümlü siyasi kursunu davam etdirdiyinin görüntüsünün yaradılması sadəcə bir siyasi teatrdır. Ermənistan bu siyasi teatrı qərbdən maliyyə dilənmək və hərbi dəstək almaq üçün edir. Reallıqda isə Ermənistan Rusiyadan ayrıla bilməz. Ona görə də Rusiya hərbi bazasını və FTX sərhəd xidmətini ölkəsindən çıxarılması ilə bağlı heç bir söz işlədilmir. Ermənistan AİI-də üzv olmaqla Rusiyanı sanksiyalardan yayındırır və böyük pullar qazanır. Bu baxımdan Ermənistan həm qərbdən, həm də Rusiyadan pul qazanmaqla öz iqtisadi potensialını formalaşdırır. Bu da hesab edirəm ki, uzun çəkən bir proses olmayacaqdır. Zaman gələcəkdir ki, Ermənistanda Rusiya və Qərb qarşıqarşıya gələcək və ermənilər ayaq altında qalacaq.

***- COP29 konfransı ərəfəsində Azərbaycana qarşı aqressiya, təzyiq elementlərinin artması nəyə xidmət edir?***

- Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər ərəfəsində qərbin bizə qarşı apardıqları qarayaxma kampaniyalarına öyrəşmişik. Bunu Avropa İdman Oyunları, İslam Həmrəylik Oyunları, Avroviziya mahnı müsabiqəsi, Qoşulmama Hərəkatının tədbiləri və digər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyimiz zamanlarda görmüşük. İndi Frank Şvabenin, ABŞ konqresmenlərinin, Fransa hökumətinin, Niderlandın anti-Azərbaycan açıqlamalarının kökündə də ölkəmizdə keçiriləcək COP29 tədbirinin dayandığını bilirik. Onlar hər vasitə ilə Azərbaycanı nüfuzdan salmağa və COP29-un ölkəmizdə keçirilməsinə manea olmasına çalışırlar. Amma onların arzuları gözlərində qalacaq və ölkəmiz COP29 tədbirini yüksək səviyyədə keçirməklə yeni bir tarix yazacaqdır. Azərbaycan beynəlxalq hüquqa hörmətlə yanaşan etibarlı tərəfdaş imicini formalaşdırmışdır. Düşmənlərimiz isə ədalətli imicimizə heç vaxt xələl gətirə bilməyəcəklər. Biz düz yoldayıq.

✍ *Tahirə Qafarlı*

Aktual

***Son zamanlar Qərb başda olmaqla, Ermənistanın havadarları bölgədə münaqişə ocağını və separatizmi yenidən körükləmək üçün Qarabağdan öz xoşları ilə köç etmiş ermənilərin geriqayıdışı məsələsini gündəmə gətirir. Bu məqsədlə separatçı rejimin İrəvan küçələrində sərgərdan dolaşan təmsilçilərinin dili ilə müxtəlif bəyanatlar səsləndirilir. Zorla qovulmuş, soyqırımlarına məruz qalmış yüzminlərlə azərbaycanlının öz doğma Qərbi Azərbaycanına qayıdışı ilə bir kəlmə olsun belə danışılmır.***



# Qərbi Azərbaycan qədim türk yurdudur

Bu baxımdan, Qərbi Azərbaycan mühacirət hökumətinin yaradılması məsələsi artıq gündəmdədir. Həmin torpaqların qədim türk yurdu olması ilə bağlı elə qərbi azərbaycanlıların tanınmış ziyalıları danışır.

■ **Tarixçi alim Qasım Hacıyevin sözlərinə görə, imperialist siyasətin və erməni vandallığı nəticəsində öz yurdundan deportasiya olunan, soyqırımlarına məruz qalan, qaçqın düşən minlərlə azərbaycanlının haqqıdır ki, "Mən qərbi azərbaycanlıyam" tarixi həqiqətini dünyaya bəyan etsin. Öz haqqını tələb, bərpa etsin. Qərbi Azərbaycan bütöv Azərbaycanın bir hissəsidir.**

> “
>
> *Ermənilərin özlərinin apardığı arxeoloji, etnoqrafik tədqiqatlardan çıxan nəticə o ərazilərin heç bir yerində erməni irsi, erməni ədəbiyyatının nümunələrinin olmadığını ortaya çıxarıb*

Q.Hacıyev rəsmi mənbələrə, aparılan tədqiqatlara əsasən indiki Ermənistanın yerləşdiyi ərazinin Azərbaycanın bir hissəsi olduğunu və bütövlükdə 1920-ci ildə qurulan bu dövlətin həmin ərazidə yerləşdiyini deyib.

Onun sözlərinə görə, hətta ermənilərin özlərinin apardığı arxeoloji, etnoqrafik tədqiqatlardan çıxan nəticə o ərazilərin heç bir yerində erməni irsi, erməni ədəbiyyatının nümunələrinin olmadığını ortaya çıxarıb:

"Qərbi Azərbaycanda erməni yazılı daşlar, yazılı abidələr və yaxud yerüstü abidələr yoxdur. Orada nə varsa, hamısının mənşəyi Azərbaycan türk xalqı ilə bağlıdır. Ermənilər o əraziyə sonradan gəliblər. Tarixi faktlar sübut edir ki, Rusiya dövləti Qacar İrandan 40 min, Osmanlı Türkiyəsindən 90 min ermənini köçürərək Azərbaycan ərazilərində yerləşdirib.

Onların xeyli hissəsi indiki Ermənistan ərazisində - Qərbi Azərbaycan torpaqlarında, bir hissəsi Azərbaycanın Qarabağ bölgəsində yerləşdirilib. O yerlərə yerləşdiriləndən sonra ermənilərin yerli mədəniyyətə, ərazilərə sahib çıxma prosesi başlanıb. XIX əsrin sonlarında o yerlərə tökülmüş ermənilər partiyalar yaradıb, Azərbaycan ərazilərindəki mədəni irsi məhv edib erməniləşdirmək siyasəti ilə saxta tədqiqat işləri də aparıblar. Patkanovun, Şahnazaryanın bünövrəsini qoyduğu ənənəni davam etdirərək Azərbaycan türklərinə məxsus ərazilərin tarixini yeni saxta yazılarla dəyişərək həmin yerləri erməni vətəni kimi təqdim etmək üçün cəhdlər göstəriblər. Həmin ərazilərdə öz dövlətlərini qurduqdan sonra Azərbaycan ərazisində ermənilərə görə "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıblar. Beləliklə, Azərbaycan torpaqlarında bir Ermənistan dövləti, bir də muxtar qurum yaradılıb. Bundan da dəhşətlisi odur ki, ermənilər Cənubi Qafqaz ərazisində qonşu dövlətlər və xalqlarla dinc yaşamaq əvəzinə, hər birinə aqressiv münasibət göstərib, əhalisini dəfələrlə o ərazilərdən deportasiya edib və onların yaratmış olduğu mədəni irsi tamamilə məhv edib. Təkcə 1935-1955-ci illərdə ermənilər rəsmi olaraq iki mindən artıq toponimi erməniləşdiriblər. Bununla belə, Azərbaycan türk irsini tamamilə məhv edə bilməyiblər. Qərbi Azərbaycanda mövcud olan abidələr - məscid, türbə, ziyarətgahlar qəbiristanlıqların şəkilləri durur və bu barədə təqdiqatlar aparılıb, yazılar yazılıb. Ermənilər bu faktı gizlədə bilməz".

Q.Hacıyev qərbi azərbaycanlıların geriyə qayıdışı məsələsinin gündəmə gəldiyi bir vaxtda bu faktların ortaya qoyularaq dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına, qəbul etməsinə ehtiyac və zərurət yarandığını qeyd edib. Onun sözlərinə görə, dünya ictimaiyyətinə başa salınmalıdır ki, ermənilər təkcə Azərbaycan türklərinə, xalqına qarşı hərbi, etnik təmizləmə aparmayıb, eyni zamanda mədəni irsinə qarşı da genosid törədiblər:

"Hər kəs bilməlidir ki, Qərbi Azərbaycan olan indiki Ermənistanın yerləşiyi ərazidəki mədəniyyət, orada yaranan ədəbiyyat, nə varsa hamısı Azərbaycan türklərinə məxsusdur.

Orada ermənilərə aid heç nə yoxdur, sonradan yaradılmış uydurma tarixdir". Q.Hacıyev bu və ya digər faktlar əsasında Ermənistanın Cənubi Qafqazda yaradılan separatçı dövlət olduğunu qeyd edib. O, ermənilərin nə Gürcüstana, nə Azərbayacana, nə də regionun digər dövlətlərinə rəğbətlə yanaşmadıqlarını, başqa ərazilərə iddia edib münaqişələr yaratdıqlarını, müharibələrə səbəb olduqlarını deyib. Bu mənada tarixçi alim hesab edir ki, Qərbi Azərbaycanın tarixi və ona yönələn erməni genosidi ətrafında təbliğat gücləndirilməlidir:

"Onlara xəbərdarlıq edilməlidir ki, o torpaqlar sizin deyil. Sülh müqaviləsindən sonra hər şey su üzünə çıxacaq və günahkarlar qaçıb gizlənməyə yer axtaracaqlar".

■ **Əslən Qərbi Azərbaycandan olan hüquqşünas alim Əli Mustafa isə bildirir ki, "Qərbi Azərbaycan" dedikdə min illər boyu türklərin yaşadığı İrəvan xanlığının tarixi yada düşür:**

"Qərbi Azərbaycan" dedikdə Dərələyəzi, Göyçəni, Vedini, Zəngəzuru, Ağababanı əhatə edən böyük bir coğrafiyanın tarixi yada düşür. "Qərbi Azərbaycan" dedikdə son 200 ildə, 1828-ci ildən sonra davamlı olaraq türk-müsəlman əhalisinin müxtəlif təzyiqlərə, təqiblərə, soyqırıma məruz qalaraq öz dədə-baba torpaqlarından köçürüldüyü, məhrum olduğu əraziləri, coğrafiyanı başa düşürük. Bu coğrafiya bir türk yurdudur, bir türk coğrafiyasıdır. Bu coğrafiyada min illər boyu türklər yaşayıb, müsəlmanlar yaşayıb. Ola bilsin orda azsaylı ermənilər də olsun, amma onlar da çox rahat yaşayıblar, onları təqib edən, incidən olmayıb. Çoxluq türk olan yerdə hər zaman azadlıq və ədalət olub".

Ə.Mustafa hesab edir ki, mövcud tarixi reallıqlar Qərbi Azərbaycan tarixini, mədəniyyətini,

> “
>
> *Bu bölgənin insanına qarşı hər zaman rus-erməni cütlüyü soyqırımı həyata keçirib*

ədəbiyyatını, toponimlərinin qayıdışımız kontekstində təbliği, öyrənilməsi və dünya ictimaiyyətinə bir Azərbaycan yurdu olaraq təqdim olunmasının zəruriliyini ortaya qoyur. Onun sözlərinə görə, xüsusilə yaşlı insanlar hər zaman danışardılar ki, 1905, 1918-ci illərdə qaçaqaç olub.

1947-ci ilin dekabrın 23-də SSRİ Nazirlər Sovetinin həmin bölgədən azərbaycanlıların, türklərin köçürülməsi ilə bağlı bir qərarı var. Onları Mil-Muğan düzünə köçürüblər ki, pambıq əksinlər: "Təsəvvür edin, dağlıq, dağətrafı bölgədə yaşayan, soyuq iqlimə öyrəşən insanları gətirib isti Muğan çöllərinə töküblər və orada insanların böyük bir hissəsi həyatlarını itirib. Yəni bu bölgənin insanına qarşı hər zaman rus-erməni cütlüyü soyqırımı həyata keçirib. Vaxtilə bölgədən insanları qovarkən onların məscidlərini, özlərini yandırıblar, var-dövlətini mənimsəyiblər.

Yəni Qərbi Azərbaycan bölgəsi, demək olar ki, insanları kimi soyqırıma, qətliama məruz qalıb. Oradakı bütün tarixi abidələr, müsəlman mədəniyyətinin gözə gələn nəyi varsa hamısını ya dağıdıblar, ya hansısa formada dəyişiblər. Bu proses əslində bu günə qədər davam edir. Ancaq bununla belə son köç 1988-1989-cu illərdə həyata keçirilib".

Ə.Mustafa hesab edir ki, bu məsələlərin araşdırılmasına və tutarlı sənədlərlə dünya ictimaiyyətinə təqdim olunmasına ehtiyac var. Onun fikrincə, bu barədə daim danışılmalıdır, bu barədə filmlər, kitablar yazılmalı oxunmalı, baxılmalıdır.

✍ *Tahirə*

# Evlənənlərin sayı azalır

## Layihə

***Son illərdə ölkəmizdə evlənənlərin sayında ciddi azalma müşahidə olunur. Bu tendensiyanı rəsmi rəqəmlər də təsdiqləyir. Məsələn, statistik məlumatlara görə, 2002-ci ilə ildə ölkəmizdə 41 min 661 nəfər nikaha daxil olub. Bu rəqəm 2003-cü ildə 56 min 91, 2004-cü ildə 62 min 177 nəfərə çatıb. Azərbaycanda evlənənlərin sayı 2005-ci ildə 71 min 643, 2006-cı ildə də 79 min 443 nəfər olub. 2007-ci ildə rəsmi nikaha daxil olanların sayı 81 mini keçib. Sözügedən ildə toplam 81 min 758 nəfər ailə həyatı qurub. Lakin növbəti ildə evlənənlərin sayında cüzi də olsa azalma qeydə alınıb: 79 min 964 nəfər. Azalma tendensiyası 2009-cu ildə də davam edərək 78 min 72 nəfərə düşüb.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

*Son illər evlənmə və boşanma nisbətində çox ciddi disbalans müşahidə edilir*

*Gənclərin formalaşması həm bioloji, həm psixoloji baxımdan müəyyən yaşdan sonra baş verir*

Buna baxmayaraq, 2010-cu ildə ailə quranların sayı 79 min 172 nəfərə yüksəlib. 2011-ci ildə nikaha daxil olanların sayında son 20 il ərzindəki ən yüksək göstərici qeydə alınıb. Həmin ildə 88 min 145 nəfər evlənib. Ancaq 2012-ci ildə ailə həyatı quranların sayı kəsin azalaraq 79 min 65 nəfərə qədər azalıb. 2013-cü ildə nikaha daxil olanların sayı artaraq 86 min 852 nəfər, 2014-cü ildə 84 min 912 nəfər təşkil edib. 2015-ci ildən etibarən isə evlənənlərin sayında ciddi geriləmə baş verib. Həmin ildə rəsmi ailə həyatı quranların sayı 68 min 773, növbəti il 66 min 771, 2017-ci ildə 62 min 923, 2018-ci ildə isə 62 min 484 nəfər olub. 2019-cu ildə il ərzində evlənənlərin sayı bir qədər yüksələrək 63 min 869-cu ilə qalxsa da, pandemiyanın yaşandığı 2020-ci ildə nikaha daxil olanların sayı kəskin aşağı düşüb. Belə ki, koronavirusun tüğyan etdiyi ildə evlənənlərin sayı sadəcə 35 min 348 nəfər olub. Lakin sonrakı iki ildə bu statistikada artım baş verib. 2021-ci ildə 56 min 314, 2022-ci ildə isə 61 min 939 nəfər il ərzində rəsmi nikaha daxil olub. Bu ilin yanvar-iyul aylarında isə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 26 min 837 nikah qeydə alınıb. Nəticədə ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,9-dən 4,5-ə düşüb. Ümumiyyətlə, statistika onu göstərir ki, təkcə ölkəmizdə deyil, qloballaşan bütün dünyada gənclər evliliyi gecikdirməyə, tək yaşamağa üstünlük verirlər. Avropa Statistika İdarəsinin məlumatına görə, hazırda dünyada ən gec evlənənlər almanlardır. Belə ki, orta yaş 33,1 olan Almaniya gəncləri ən gec evlənən ölkədir. Amerikada orta evlilik yaşı 27,9 olduğu halda, Avropa qitəsi daha gec evlənir. Asiya və Afrika qitələrində isə gənclər daha erkən yaşlarda evlənir. Ən aşağı orta nikah yaşı olan ölkə 21,9 ilə İndoneziyadır. Daha sonra bu sırada Hindistan, Banqladeş kimi ölkələr gəlir.

■ **Mövzu ilə bağlı sosioloq Elçin Bayramlı bildirib ki, son illər evlənmə və boşanma nisbətində çox ciddi disbalans müşahidə edilir: "Boşanmalar 50 faizə çatıb, bu, ciddi siqnaldır.** Evlənmələrin kəskin azalması da məsələnin digər problemli tərəfidir. Bunun da iki əsas səbəbi var. Birincisi, mənəvi-psixoloji deqradasiya, gənclərlə bağlı aparılan təbliğatlardır. Gənclərə təbliğ olunur ki, qətiyyən evlənməyin, karyera qurun və gələcəkdə evlənmə məsələsinə baxarsınız. Bu da çox zərərli təbliğatdır və nəticələrini də görürük. İkincisi, gənclərə daim əyləncə təbliğ olunur və onlarda da belə bir fikir formalaşır ki, evlənib ailəyə diqqət, qayğı göstərib pul xərcləməkdənsə, bunu özümə xərcləyərəm. Yəni gənclər eqoist bir əhval-ruhiyyədə formalaşırlar. 20-30 ildir davamlı təbliğatın nəticəsi dəyərləri, düşüncələri çox mənfi istiqamətdə dəyişdirib".

Onun fikrincə, gənclərin evlənməməsinə sosial-iqtisadi vəziyyət də təsir göstərib: "Ölkədə iş yerlərinin az olması, mövcud iş yerlərində də maaşların aşağı olması gəncləri evlənməkdən çəkindirir. Üstəlik, Azərbaycanda gənclərin 90 faizinin ev almaq imkanları yoxdur. Ev ala bilməyəndə də maaşla yalnız kirayə pulunu ödəmək mümkündür. Ona görə də evi olmayan, tək özünü belə dolandıra biləcək gəncdən evlənməyi gözləmək olmaz. Bu da sosial problemlərin təsiridir. Bütün bunlar milli genefondumuza və ailə institutuna ciddi zərbə vurur. Bunun qarşısını almaq üçün ciddi addımlar atılmalıdır".

■ **Məsələ ilə bağlı psixoloq Vəfa Əkbər bildirib ki, gənclərin formalaşması həm bioloji, həm psixoloji baxımdan müəyyən yaşdan sonra baş verir: "Otuzyaşlı şəxs həm fiziki, həm də psixoloji baxımdan evliliyə hazır olur. İnsanların ayaqda durması və müstəqil həyata qədəm qoyması üçün daha çox zamana ehtiyacı var.** Onlar sosial qayğılardan qurtulub ailə həyatı qurmaq istəyirlər. Əslində, müəyyən yaşdan sonra qurulan ailələr daha fundamental olur. Gec yaşda ailə quran insan onun qədrini daha çox bilir. Ailəsinə daha çox bağlı olur. Gənclər status üçün evlənirsə, ailə təməli çox zəif qurulur". Mütəxəssis hesab edir ki, insanlar özlərini evliliyə psixoloji baxımdan hazır hiss etdikləri zaman ailə qurmalıdırlar: "İnsan var ki, sosial cəhətdən təminatlıdır, ancaq özünü evliliyə hazır hiss etmir. Belə insanı evlilik yaşı keçsə belə, evliliyə məcbur etmək olmaz".

*Gənclərimiz ancaq universitetdən və işdən evə və əks istiqamətə hərəkət etməyə vaxt tapırlar*

*Son vaxtlar evliliklərin azalmasının deyil, boşanmaların artmasının əsas səbəbini araşdırmağa ehtiyac var*

■ **"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalovanın sözlərinə görə, kişi və qadınların gec evlənməsi bir neçə aspektlə bağlıdır:** "Gənclər təhsil və karyera yüksəlişinə vaxt ayırırlar və evlənməkdə gecikirlər. Yəni başı işləməyə, pul qazanmağa qarışan insanın bütün diqqəti ancaq buraya yönəlir. Evlənmək belə insanlar üçün ikinci plana keçir. Gününün çox hissəsini işdə keçirən, iş başında olan insanların tanışlıq üçün də imkanı qalmır. Gənclərimiz ancaq universitetdən və işdən evə və əks istiqamətə hərəkət etməyə vaxt tapırlar. Yaxud həm oxuyub, həm işlədiklərindən, ya da 2 yerdə işlədiklərindən ailə qurmaq yaddan çıxır. Ev alım, maaşım yüksək olsun, sonra ailə quraram deyir və nəticədə yaş keçir. Təhsil almaq, iş axtarmaq, öz ayaqları üzərində dayanmağı bacarmaq, bütün bunlar uzun illər tələb edir. Hər bir gənc istəyir ki, öz məvacibi ilə ailəsini dolandırmaq gücünə malik olsun, sonra evlənsin. Bəzi kişilər maddi baxımdan ailəsini təmin edə bilməyəcəyindən qorxduğundan evlilik fikrinə soyuq yanaşır. Əslində, əvvəllər gənclər valideynlərin uyğun gördüyü, məsləhət bildiyi insanla ailə qururdular. İndi dövr dəyişib, çox az insan tapılar ki, valideyn seçimi ilə ailə qursun. Gənclər daha çox özləri seçim etməyə, gələcək həyat yoldaşlarını özləri seçməyə üstünlük verirlər. Özü kimi düşünən, özünə uyğun adam tapmağa çalışırlar. Bu da müəyyən qədər zaman alır. Təcrübə göstərir ki, valideynlər tərəfindən verilən təkliflər çox vaxt asılılıq yaradır".

Onun sözlərinə görə, indi valideynlərlərin çoxu gənc ailəyə dəstək olmaq istəmir. Daha çox dağıdıcı rolunda çıxış edirlər: "Əgər valideynlərin iqtisadi cəhətdən gənc ailəyə təsir etmək imkanları varsa, onlar hakimiyyəti öz əllərinə almaq və öz istədikləri kimi idarə etmək istəyirlər.

Bununla da gənclərin çoxu razılaşmır. Müşahidə edirik ki, hazırda 30-40 yaşlarında ailə qurma halları mövcuddur. Bu hal genofondumuz üçün təhlükədir. Bu cür nəticə sonsuzluğa gətirib-çıxarmaqla yanaşı, uşaqların doğum hallarının azalmasına səbəb olur. Fikrimcə, 25-30 yaş evlənmək üçün münasib vaxtdır. Bu yaşda onların məsuliyyəti artır, həyata baxışı dəyişir".

■ **Mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızı deyib ki, son vaxtlar evliliklərin azalmasının deyil, boşanmaların artmasının əsas səbəbini araşdırmağa ehtiyac var: "Bu gün gənclər arasında yeni bir tendensiya mövcuddur.**

Onlar söyləyirlər ki, xasiyyətlərimiz uyğun gəlməsə, ayrılacağıq. Buna görə də rahat davranırlar. Bəziləri azadlıq anlayışını düzgün anlamırlar. Bu səbəbdən aqressiya artır. Hər şeyin ən idealını istəmək, insanların empati duyğularının zəifliyi, dinləmə bacarığının olmaması ailədə problemlərə səbəb olur. Çütlüklər arasında ziddiyyətlər isə sonda boşanmaya gətirib çıxarır. Qarıbəsi odur ki, insan artıq bir-birinə tab gətirə bilmirlər. Nəinki ailə uzunmüddətli dostluq münasibətləri belə yox səviyyəsindədir. Sanki ətrafa qarşı özgüvənsizlik duyğusu var. İndiki gənclərin həddindən artıq sərbəst düşüncə altında ailə dəyərlərini məhv etməsi haqlı olaraq yaşlı nəslin xoşuna gəlmir. Onlar da bunu ailələrin münasibətə qarışması kimi başa düşürlər. Ona görə daha da hiddətlənirlər. Elə bir dönəmdir ki, insanlar azadlıq anlayışını özlərinə sərf edən tərzdə başa düşürlər".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Ceyhun Bayramov ABŞ rəsmisi ilə Azərbaycan və Ermənistan arasında normallaşma prosesini müzakirə edib

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşdə Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.***



Azərbaycanın cari ildə ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqlar çərçivəsində Azərbaycan-ABŞ əməkdaşlığı yüksək qiymətləndirilib.

İkitərəfli münasibətlərdə müsbət dinamikanın yaradılması, əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində səylərə baxmayaraq, bəzi ABŞ rəsmilərinin qərəzli fikirlərinin ikitərəfli münasibətlərə mənfi təsir etdiyi diqqətə çatdırılıb. Bu xüsusda, 16 sentyabr tarixində Ermənistanın ABŞ-dəki səfirliyində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin administrator müavini İzobel Koulmanın Azərbaycana qarşı açıqlamalarına istinad edilərək, bu kimi çıxışların Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik olduğu, ölkəmizin suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğuna son qoymuş antiterror tədbirləri ilə bağlı faktları təhrif etmək məqsədi daşıdığı vurğulanıb.

Görüş zamanı post-münaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycanla Ermənistan arasında normallaşma və sülh sazişi üzrə aparılan proses barədə qarşı tərəfə məlumat verilib. Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu xatırlanıb. Bölgədəki mina təhdidləri qeyd edilib, bu istiqamətdə mümkün əməkdaşlıq nəzərdən keçirilib.

Sülh sazişi üzrə danışıqlarda əhəmiyyətli irəliləyişə baxmayaraq, yekun sülh sazişinin imzalanmasına ən ciddi maneənin başda Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin bir sıra hüquqi və siyasi sənədlərində Azərbaycana qarşı ərazi iddialarının davam etməsi olduğu vurğulanıb. Bundan əlavə, Ermənistanın hərbiləşdirilməsi siyasətinin bölgədə sülh və sabitliyə xidmət etmədiyi bildirilib.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## XƏBƏRİNİZ OLSUN...



■ Müğənni-bəstəkar Polad Bülbüloğluna Başqırdıstanın Xalq artisti adı verilib. Mükafatı ona regionun rəhbəri Radi Xabirov təqdim edib. Mərasim Ufada keçirilən MDB ölkələrinin yaradıcı və elmi ziyalılarının XVII Forumu çərçivəsində baş tutub.

■ "KTMT Ermənistanın təhlükəsizliyinə, gələcək mövcudluğuna və suverenliyinə təhdid yaradır". Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan II Ümumdünya Erməni Sammitində çıxışında deyib. Paşinyan, həmçinin vurğulayıb ki, ölkəsi KTMT ilə münasibətlərdə geri dönülməsi mümkün olmaya nöqtəyə yaxındır.

■ "Əvvəllər Rusiya ilə hərbi-texniki əməkdaşlığın səviyyəsi 96 faizə çatırdısa, indi bu göstərici 10 faizdən aşağı düşüb". Bu fikirləri Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib. Onun sözlərinə görə, ölkəsi Fransa və Hindistanla hərbitexniki sahədə sıx əməkdaşlıq edir.



■ Soyuq aylarda qripin, infeksiyaların artması gözlənilir və bu, normal bir haldır. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. O bildirib ki, qrip üçün peyvənd etmək lazımdır və 6 aydan yuxarı olan uşaqlar, eləcə də digər şəxslər qrip peyvəndi oluna bilərlər.

■ Beynəlxalq nəqliyyat və logistika sahəsində fəaliyyət göstərən şirkət "Global DTC Pte Ltd" COP29-da təşəbbüs irəli sürmək və Orta Dəhlizi "yaşıl yola" çevirməyi planlaşdırır. Bunu şirkətin Proqramların İnkişafı Şöbəsinin rəhbəri Janar Bağaşarova deyib.

■ İtaliyanın əfsanəvi futbolçusu Salvatore Skillaçi vəfat edib. O, bir müddətdir xərçənglə mübarizə aparırdı. Dünya Kubokunun bombardiri adını qazanaraq İtaliyanın əfsanəvi adlarından birinə çevrilən Skillaçi 59 yaşında dünyasını dəyişib. O, 1990 Dünya Kubokunda göstərdiyi performansla italyanların simvoluna çevrilmişdi.



■ Azərbaycanda 2030-cu il üçün 7 Gwt yaşıl enerji istehsalı güclərinin istifadəyə verilməsi nəzərdə tutulub. Bu barədə energetika nazirinin müavini Orxan Zeynalov deyib. Onun sözlərinə görə, qeyd olunan göstəricinin 2 Gwt-ı daxili tələbatın təmin olunmasına, qalan hissəsi isə ixraca yönəldiləcək.

■ Çinin Xarici İşlər Nazirliyi ABŞ-ın Tayvana silah satışında iştirak edən bu ölkənin ordusuna bağlı doqquz şirkətə qarşı cavab tədbirləri görəcəyini açıqlayıb. Nazirlikdən verilən məlumata görə, Sierra Nevada Corporation və Stick Rudder Enterprises LLC də daxil olmaqla firmalara qarşı görülən tədbirlər qüvvəyə minib.

# Vətən müharibəsi hər zaman qürurla anılacaq



**Sevinc Alızadə,**
"Zəfər yolu" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

## Müsahib

***27** sentyabr 2020-ci il. İşğala son qoymaq üçün Azərbaycan Ordusunun keçirdiyi əks-hücum əməliyyatından 4 il ötür. Azərbaycan əsgərinin qəhrəmanlığı, qanı-canı bahasına başa gələn, qızıl hərflərlə tarixə yazılan o böyük Zəfər Azərbaycan dövlətinin, xalqının istiqbalına yönəlik yeni yol xəritəsinin cızılması ilə nəticələndi. Artıq 4 ildir ki, dövlət, xalq həmin yolla irəliləyir. Bu, həmin yoldur ki, orada canını torpaq uğrunda qurban verən Şəhidlərimizin əbədi xatirəsinin hörmətlə anılması, qazilərimizin diqqət, qayğı ilə əhatə olunması, gələcək nəsillərə örnək bir nümunə kimi təqdim olunması ilə bağlıdır. Müsahibimiz "Zəfər yolu" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadədir:***

***- 2020-ci il sentyabrın 27-də başlanan Vətən Müharibəsi Azərbaycan xalqının inamını, mübarizlik ruhunu, milli kimliyini yenidən özünə qaytardı. Azərbaycan xalqı 30 il ərzində işğal faktına qarşı apardığı mübarizəni qələbə əzmi ilə sona çatdırdı. Xalqımız məğlubiyyət sindromundan qurtardı. Torpaqlarımız öz övladlarının ayaq səsini eşitdikcə yenidən canlandı?***

- Azərbaycan xalqı düşmən üzərində qazandığı Zəfərlə bərabər torpaqlarımızın işğal altında qaldığı illər ərzində alında hiss etdiyi ləkəni təmizlədi, keçmişinə, soykökünə olan bağlılığını bərpa etdi. Azərbaycan xalqı işğal altında olan torpaqlarını bir gün belə unutmadı və hər zaman öz yurduna zəfərlə qayıdacağına inandı. Öz həyatını, gələcəyini Qarabağsız təsəvvür etmədi. Hər birimiz "Qarabağ azad olunandan sonra bayramlarımızı daha ürəklə qeyd edəcəyik", - deyə düşündük, niyyət etdik. Şükürlər olsun ki, qəhrəman Şəhidlər o günləri bizlərə nəsib etdi. Azərbaycan dövləti, Ali Baş Komandan, xalq birliyi düşmən üzərində qətiyyətli qələbə üçün dəmir yumruq timsalında düşmənin başını əzdi.

Azərbaycan dövləti bu gün beynəlxalq müstəvidə inamla çıxış edir və öz haqlı mövqeyini qətiyyətlə qoruyur. Azərbaycanı qalib bir dövlət kimi tanıyır, sayırlar. Bu gün Azərbaycan Qərblə Şərq arasında bir körpü, logistik mərkəz rolunda çıxış etməklə, beynəlxalq səviyyədə keçirilən tədbirlərin məkanına çevrilib. Azərbaycan haqq savaşından qalib çıxandan sonra ona dost olan, yaxud əks mövqedə dayanan dövlətlər ərazi bütövlüyümüzü, suverenliyimizi, haqq savaşımızı, qalibiyyətimizi tanımağa məcburdurlar. Bu elə bir müqəddəs zirvədir ki, o, Azərbaycan xalqının igid oğullarının qanı ilə yazıldı. Xalqımız Ali Baş Komandanın ətrafında birləşərək, vahid bir güc kimi çıxış etdi. Dünya qalib xalq və dövlət olaraq Azərbaycana hörmətlə yanaşır və hər kəsdə bu inam formalaşıb. Son 200 ildə Azərbaycana qarşı aparılan parçalama, soyqırım siyasəti, xalqımıza verilən zülmlərin sonu gəldi. Xalq öz sözünü dedi. Tarix 44 günlük müharibədə əldə olunan bu zəfəri unutmayacaq. Vətən Müharibəsi hər zaman qürurla anılacaq və bu tarix Azərbaycan insanının gələcəyə daha əzmlə baxması üçün bir tramplin rolunda çıxış edəcək.

27 sentyabrda başlanan savaşımız üç mindən çox qəhrəmanı Şəhidlik zirvəsinə apardı. Ən yüksək məqam onların məqamıdır. Qarabağı görməyən oğullarımız Vətən üçün döyüşdülər, ən şirin nemət olan canlarından keçdilər. Allah hər birimizə o zirvələrdə dayanmağı nəsib etsin.

***- Bu gün 27 sentyabr tarixi və o tarixi qanı ilə yazan Şəhidlərimiz necə anılır?***

- 27 sentyabr tarixi xalqın oyanışının pik nöqtəsi, öz ərazi bütövlüyü uğrunda apardığı mübarizənin qızıl mərhələsidir. 44 günlük müharibə Şuşa qalasının alınması ilə yekunlaşdı. Bu yolda şəhidlər verdik, yaralananlar oldu. Bu müharibədə gözlərini, əl-ayaqlarını itirənlər oldu. Yanında əsgər yoldaşının şəhid olduğunu görən o oğullar ağrılarını, yaralarını unudaraq "Vətən sağ olsun" deyib ölümdən qorxmadan düşmənin üzərinə getdilər. Bu, böyük bir mənəvi zənginliyin, milli ideologiyanın əsasıdır. Biz bu gün o əsgərlərin keçdiyi döyüş yolunu filmlərdə, əsərlərdə, göstərə bilsək, çox böyük qəhrəmanlıq hekayələri üzə çıxacaq, gələcək nəslin ikişafına böyük təsir göstərəcək.

27 sentyabr, həm də xalqımız üçün əbədiyaşar insanlarının şəhadətə qovuşmasının ilk günləridir. Müharibənin başladığı ilk günlərdə əsgərlərimiz əzmlə, düşmən həmləsindən qorxmadan düşmənin alınmaz səddini yardılar. Ən ağır döyüşlər Füzuli, Murovdağ istiqamətində olmuşdu. İgidlərimizin əkshücumu itkilər versək də qələbə ilə tamamlandı. Bu gün bizim üzərimizə düşən əsas iş onların adını qəhrəmanlıqlarına layiq şəkildə yaşatmaqdır.

Məni narahat edən məsələlər var. Artıq 4-cü ilini qeyd etdiyimiz Vətən müharibəsi qəhrəmanlarının qəhrəmanlığını göstərə biləcək ssenarilər, kinolar, möhtəşəm ədəbi əsərlər yoxdur. Bunun olmasını istəyirik və gözləyirik. Biz bu gün ədəbiyyatçımızdan tutmuş, bəstəkarımıza qədər Şuşaya, Xankəndinə gedir, bu Zəfərimizdən ilhamlanırıq. Bu Zəfər yolunu bizə bəxş edən Şəhidləri anladacaq əsərlər hələ də yaratmamışıq. İnanıram ki, onlara layiq əsərlər yazılacaq, ərsəyə gələcək.

***- Necə hesab edirsiniz, Şəhid ailələrinə diqqət və qayğı hansı səviyyədədir?***

- Azərbaycan dövləti Vətən müharibəsindən sonra sosial proqram elan etdi. Qarabağda yenidən bərpa-quruculuq işləri davam edir. Belə bir şəraitdə dövlət öz imkanları daxilində Şəhid ailələrinə və qazilərimizə olan sosial dəstəyini və qayğısını əsirgəmir. Ən böyük problem dövlət siyasətini həyata keçirməli olan məmurlarımızla bağlıdır. Şəhid ailələrinə dəstəklə, qazilərimizlə bağlı nəzərdə tutulan sosial proqramların həyata keçirilməsi haradasa ilişib qalırsa, bu məmur laqeydliyindən yaranır. Bu problem aradan qaldırılmalıdır. Əgər hər kəs öz işinə məsuliyyətlə yanaşarsa, bu problem aradan qaldırılar və dövlərin sosial siyasəti öz müsbət nəticəsini verər.

> *"Azad olunmuş torpaqlarda şəhidlərimizin adına küçələr, parklar salınmalıdır*

***- Məlumdur ki, artıq yeni dərs ili başlayıb. Bu yeni tədris ilində Şəhid ailələrinin ali, orta təhsilinə dəstəklə bağlı hansı yeniliklər var?***

- Bəli, yeni dərs ili başlandı. Bu il birinci sinifə gedən Şəhid övladlarımız çoxdur və onlar diqqətdə saxlanır. Belə ki, "Paşa Holdinq" tərəfindən bütün Şəhid övladlarına məktəb ləvazimətları paylanıldı. Eyni zamanda, YAŞAT Fondu da belə bir aksiyanı reallaşdırdı. Naxçıvandan tutmuş, Azərbaycanın hər bir bölgəsində olan şəhid övladları dərs ləvazimatları ilə təmin olundular. Biz buyük dəstəkdir. Məlumdur ki, orta təhsil üzrə dövlət məktəbləri ilə yanaşı, özəl məktəblərdə də təhsil alan Şəhid övladlarımız var. Özəl məktəblərdə oxuyan şəhid övladlarının təhsilhaqqı YAŞAT Fondunun dəstəyi ilə qarşılanır. Təhsilhaqlarının ödənilməsi üçün hər il Fonddan müəyyən məbləğdə pul ayrılır. Mən çox istərdim ki, insanlarımız, xalqımız Şəhid övladlarına dəstək versin. Biz Şəhidlərimizin əmanətlərinə sahib çıxıb, onlara dəstək durmaq istəyiriksə, ilk növbədə, onların təhsilinə diqqət göstərməliyik. Ona görə də bu istiqamətdə problem yaşanmasın deyə onların təhsil haqqının ödənilməsi üçün YAŞAT Fonduna olan ianələr, ödəmələr artırılmalıdır. Həmin ianələrin hesabına övladlarımız oxuyur. Hər birimiz bunu düşünməli, dəstək olmalıyıq.

Bu il 45-ə yaxın Şəhid övladı ali təhsil ocaqlarına qəbul olunub. Eləcə də ali təhsil almaq istəyən şəhid xanımlarımız var ki, tələbə adını qazanıblar. Xarici ölkələrin təhsil müəssisələrinə üz tutanlar var. "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə Azərlotoreya Açıq Səhmdar Cəmiyyəti və Elm Təhsil Nazirliyinin birgə iştirakı ilə şəhid övladları, xanımları üçün "Əmanətə sədaqət" adlı təqaüd proqramı reallaşdırırıq. Artıq 4 ildir ki, bu proqramdan yararlanan, yeni qoşulan uşaqlar üçün görüşlər keçiririk. Bu proqramda yeni qoşulanlarla bərabər 145-ə yaxın Şəhid əmanati yararlanmaqda davam edir. Bu layihəni daha da genişləndirməklə davam etdirməyi nəzrədə tuturuq.

***- Şəhid adlarının əbədiləşdirilməsi məsələsində bizdən asılı olan, yaxud asılı olmayan hansı məsələlər var? Bu istiqamətdə görülən işləri necə dəyərləndirirsiniz?***

- Şəhid adının əbədiləşdirilməsi ilə bağlı köhnə qanunvericilik aktı var. Düzdür, o qanuna dəyişikliklər olunur. Hələ də həm Şəhid ailələri narazıdır, eyni zamanda hər iki tərəfin - dövlət və Şəhid ailələrinin məsələyə öz baxışları var. Mən həmişə demişəm ki, Şəhid adları əbədiləşdirilməlidir. Qarabağda tikilən yollara, tunellərə Şəhid adları verilməlidir. Azad olunmuş torpaqlarda şəhidlərimizin adına küçələr, parklar salınmalıdır. Biz bununla, bacardığımız qədər onların yaşatmağa çalışmalıyıq. Bunu edə bilərik. Və bu istiqamətdə yazılan qanunlar da zamanın, günün nəbzinə, ictimai münasibətlərə uyyğun olmalıdır. Bu, mövcud narazılığı aradan qaldıra bilər. Hər kəsə Milli Qəhrəman adı, yaxud iki medal verilməyib. Bu məsələ Şəhid ailələrinin qarşısında böyük tələb kimi durur və həll olunmadıqca narazılıq yaradır. Onların ən böyük adı Şəhiddir və o adı əbədiləşdirmək olar. Hesab edirəm ki, bu prosesdə Türkiyə təcrübəsindən istifadə etmək mümkündür.

***- Şəhid ailələrinin mənzillə təminatının tezliklə yekunlasacağı deyilir. Bu istiqamətdə gedən prosesləri necə dəyərləndirirsiniz?***

- Şəhid ailələrinin mənzillə təminatında hələ də problemlər var. Hələ də növbədə gözləyən Şəhid ailələri var. Bəli, bu sahədə dövlət proqramı elan olunub, bunun yekunlaşacağını da deyirlər. Amma problemlər qalır. Bu problem daha çox bölgələrdə var. Bölgələrdə Şəhid ailələri üçün nəzərdə tutulan fərdi evlərin tikintisi ləng gedir. Məlumdur ki, paytaxtda köçkünlər üçün tikilmiş sosial evlərin əksəriyyəti şəhid ailələrinə ayrıldı. Amma bunu bölgələrlə bağlı demək olmur. Bölgələrdə evlərin tikintisi ləng getdiyi üçün narazılıq və Bakıya axın yaradır. Çünki bölgələrdə illərlə mənzil ala bilməyənlər gəlib burada qeydiyyata düşür və ev almağa çalışırlar. Biz bu axının qarşısını almalıyıq.

***- Vətən uğrunda canından keçən qazilərə diqqət və əliliyin verilməsi ilə bağlı proses qaneedicidir?***

- Qazilərin 5 ildən bir əlillik dərəcəsinin müəyyənləşdirilməsi, eləcə də səhhətlərinin, vəzyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı ekspert komissiyaları fəaliyyət göstərir. Bu istiqamətdə az məlumatlı olsam da, bacardığımız qədər biz də buna dəstək göstərməyə çalışırıq. Düşünürəm ki, əlilliyi olan şəxslər sosiallaşmalı, cəmiyyətə inteqrasiya olunmalıdır. Biz buna nail olsaq, qazilərin yaralarına məlhəm olmuş olarıq. O dəhşəti yaşayan qazilərimiz ciddi mənəvi-psixoloji yaralar alıblar. Məmurlarımız, hər birimiz onlara diqqətlə, səbrlə yanaşmalıyıq. Qazilərin əlilliyinin qiymətləndirilməsi, reablitasiya xidmətləri ilə bağlı bir sıra işlər görülür. Bununla yanaşı, hər kəs onların səsini eşitməli, zamanında müdaxilə etməli, həll etməyə çalışmalıdır. Həmin müharibədə döyüş yoldaşını itirib, ağır acı yaşayıb, böyük zədələr alıb. Ona görə də hər birimiz qazilərə həssaslıqla yanaşmalıyıq.

✍ *Tahirə Qafarlı*

## Məzənnə

***A**zərbaycan manatının məzənnəsi 2029-cu ilə kimi sabit qalacaq. Bu barədə "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"in ölkə ilə bağlı proqnozunda bildirilib. Qeyd edilib ki, Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarına nisbətdə sabit məzənnə rejimi tətbiq edir. Manatın proqnozu sabitdir və bu, böyük həcmdə cari əməliyyatlar hesabında müsbət saldo ilə dəstəklənir. EIU hesab edir ki, AMB-nin 2024-2028-ci illərdə əsas siyasət prioriteti böyük həcmdə valyuta ehtiyatları nəzərə alınmaqla manatın məzənnəsini sabit saxlamaqdır. Qeyd edək ki, yalnız EIU deyil, əksər beynəlxalq səviyyəli analitik mərkəzlər yaxın və ortamüddətli dövrdə Azərbaycanda milli valyutanın məzənnəsinin dəyişməyəcəyini proqnozlaşdırırlar.***

# Manat sabit qalacaq?



"S&P Global Ratings" beynəlxalq reytinq agentliyinin proqnozuna əsasən, hökumət tərəfindən dəstəklənən Azərbaycan manatının məzənnəsi ABŞ dollarına nisbətdə 1,7 AZN səviyyəsində qalacaq.

"Fitch Group"a aid olan "Fitch Solutions" (FS) şirkətinin Azərbaycan üzrə proqnozuna görə, 2027-ci ilə kimi manatın məzənnəsi sabit qalacaq. Bununla belə, şirkət 2027-ci ildə manatın məzənnəsinin 1,75 səviyyəsinə, 2028-ci ildən isə 1,80 səviyyəsinə qədər enəcəyini proqnozlaşdırır. Proqnoza görə, USD/AZN məzənnəsi 2033-cü ilə kimi 1,80 səviyyəsində qalacaq. Yeri gəlmişkən, İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2025-2028-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb. Bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir ki, proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir.

Xatırladaq ki, ölkədə milli valyutanın məzənnəsi 2018-ci il martın 7-dən sabitdir.

**■ Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov bildirib ki, gələn ilin dövlət büdcəsində, ümumiyyətlə qarşıdakı bir neçə il ərzində manatın məzənnəsinin ABŞ dollarına nəzərən 1,70 manat səviyyəsində qalacağının proqnozlaşdırılması hər şeydən öncə ölkədə valyuta bazarında tənzimlənmənin sərbəst üzən məzənnə rejiminə keçilməyəcəyindən xəbər verir:**

"Bu da ondan irəli gələcək ki, demək, ölkəmizin iqtisadiyyatının birtərəfli inkişafının dominant rolu hələ bundan sonra da qalmaqda davam edəcək və gəlirlərimiz, ölkənin tədiyyə balansı neft-qaz sektorundan daxil olan və olunacaq dollarlardan asılılığını hələ saxlayacaq. Odur ki, hökumətə manatın məzənnəsinin ABŞ dollarına nəzərən 1,70 azn səviyyəsindən aşağı-yuxarı dəyişməsi sərf etmir. Çünki bu, idarəetmədə, sosial aspektdə və digər istiqamətlərdə əlavə problemlər ortaya çıxara bilər. Ancaq iş bundadır ki, qlobal konyunkturaya bağlılıq bu istəyi həm gerçəkləşdirə, həm də gerçəkləşdirməyə bilər. Ona görə də manatın qarşıdakı illər ərzində hökumətin yanaşması sadəcə olaraq bir "arzu" kimi qiymətləndirilə bilər. Həqiqətdə isə, heç növbəti il üçün də bu barədə dəqiq proqnoz vermək mümkün deyil.

Xeyli müddətdir ki, enerji vasitələri üzrə qlobal bazarlardakı vəziyyət ölkəmizin tədiyyə balansı və onun tərkib hissəsi olan xarici ticarət sarıdan maraqlarına cavab verir. Və elə bunun nəticəsidir ki, valyuta bazarımızda sabitlik hökm sürür, manat ABŞ dollarına nəzərən 1,70 AZN nöqtəsində dayanıb durub. Amma nəzərimizdə qaçırmaq lazım deyil ki, məsələn, xarici ticarətimizdə idxal-ixrac əməliyyatları azalır, müsbət saldo enir. Cari il ərzində hətta tezliklə iqtisadiyyatımızda birtərəfli inkişafa son qoymaq üçün prioritet seçdiyimiz qeyri-neft-qaz sektoru üzrə də ixracımız azalma nümayiş etdirib və etdirir. Üstəgəl, neft hasilatımız özü azalır, qaz üzrə isə gəlirlilik neftdə olduğu kimi deyil. Və ən nəhayət, dünya bazarlarında neftin qiymətinə də dair proqnozlar yaxşı deyil. Düzdür, qiymət həddi 50 ABŞ dolları həddində rəqs edəcəyi halda da belə, bu, bizim üçün təhlükə törədə bilməz. Lakin bunun özü də uzun müddət davam etməməlidir. Yəni, nə qədər ki, qeyri-neft-qaz ixracından əldə etdiyimiz dollarlar bizi etməyəcək, manatın məzənnəsini neftin qiyməti uzun müddət 50 dollar ətrafında olarsa da belə, sabit saxlamaq mümkün olmayacaq".

> *"Hökumətə manatın məzənnəsinin ABŞ dollarına nəzərən 1,70 AZN səviyyəsindən aşağı-yuxarı dəyişməsi sərf etmir*

> *Mərkəzi Bank çox ehtiyatlı pul-kredit siyasəti həyata keçirir*

**■ Məsələ ilə bağlı iqtisadçı-ekspert Fuad İbrahimov qeyd edib ki, dünya valyutalarının məzənnəsinin formalaşmasında əsas şərtlərdən biri idxal-ixrac əməliyyatlarındakı balansın səviyyəsi və eləcə də ölkənin iqtisadi dayanıqlılığıdır:** "Nəzərə alaq ki, Azərbaycanın neftdən asılılığı yüksəkdir. İndiki vəziyyətdə də neftin qiymətində nisbi sabitlik olsa da arzuolunan səviyyədə deyil. Ona görə də büdcə xərclərində neftin qiymətini diversifikasiya olunmuş səviyyədə saxlayırıq ki, hər hansı bir təhlükə yaranmasın. Bununla belə, neft gəlirləri ilbəil azalır. Bunun da tək səbəbi hasilatın azalması və neft qiymətinin aşağı düşməsidir. Hər bir halda neftdən daxilolmalar azalsa da, profisit var. Bu da manatın dayanıqlı olmasına şərait yaradır. Bundan əlavə, Azərbaycanın kifayət qədər çox valyuta ehtiyatı var".

Ekspert onu da qeyd edib ki, dövlət büdcəsi və onun xərclər hissəsi ilbəil böyüyür, xərclərimiz artır: "Bununla belə Mərkəzi Bank çox ehtiyatlı pul-kredit siyasəti həyata keçirir. Məhz bu səbəbə görə deyə bilərik ki, bu ilin sonuna və 2025-ci ilin birinci yarısında manatın məzənnəsi sabit qalacaq".

✍ *Sevinc*

# Trampla Harrisin şansları bərabərdir

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün budəfəki söhbətimizdə ABŞ prezidentliyinə namizədlər Donald Tramp və Kamala Harrisin qələbə şansları, ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin Avropa-Avrasiya Regional Mərkəzinin rəhbərinin və Böyük Britaniyanın "Mİ 6" kəşfiyyat xidməti direktorunun ardıcıl olaraq Bakıya gəlmələri, Ukraynaya ABŞ və Böyük Britaniya silahlarının Rusiyanın ərazisini vurmaq üçün istifadə edilməsinə icazə verilməməsinin səbəbləri və s. haqda danışdıq.***

## Müsahib

***- Prezidentliyə namizədlər Donald Trampla Kamala Harrisin debatına Amerika cəmiyyətinin reaksiyalarından sonra hansı nəticəyə gəldiniz? Deyəsən, Harrisin qalib gəlmək şansları daha çoxdur?***

- Donald Trampla Kamala Harris arasında Pensilvaniya ştatında keçirilmiş debat əslində heç nəyi müəyyənləşdirmədi. Əgər biz məsələyə bir az dərindən baxsaq, onun ictimai rəyə təsir, şou tərəfini kənara qoysaq, bu gün birmənalı şəkildə demək olar ki, güclər bərabərdir. Baxmayaraq ki, Trampa qarşı çox ciddi ittihamlar var. Özü də həmin ittihamlar yalnız demokratlar, onlara bağlı güclü media resursları tərəfindən deyil, elə Respublikaçılar Partiyasının özündən olan tanınmış şəxslər tərəfindən də səslənir. Onların arasında son 20 ildə prezidentliyə namizəd olmuş, iki keçmiş vitse-prezident də var; bunlardan biri oğul Buş dönəmində vitse-prezident olmuş Dik Çeynidir, digəri isə Tramp dönəmində vitse-prezident olmuş Mayk Pensdir. Onlar açıq şəkildə əks düşərgənin namizədinə, yəni Kamala Harrisə dəstək verib. Belə tanınmış respublikaçıların sayı nə az, nə çox, düz 20 nəfərdir. Bu, çox ciddi göstəricidir...

Bütün bunlar belə bir görüntü yaradır ki, Trampın seçkilərdə məğlub olmaq şansı kifayət qədər yüksəkdir. Debat haqqında da ictimai rəy belədir ki, üstünlük Harrisin tərəfində olub. Amma məsələ burasındadır ki, rəy sorğuları bir qədər fərqli nəticələr ortaya qoyur. Müxtəlif sosioloji araşdırma mərkəzlərinin, media vasitələrinin keçirdiyi rəy sorğuları şansların aşağı-yuxarı bərabər olduğunu göstərir. Digər bir maraqlı fakt da ondan ibarətdir ki, Respublikaçılar Partiyasından olan yuxarıda qeyd etdiyim 20 nəfər tanınmış aparıcı siyasətçinin mövqeyinə rəğmən sorğular göstərir ki, respublikaçıların 95-97 faizi Trampı dəstəkləyir. Həlledici amil də, əlbəttə ki, seçicilərin səsidir...

Bilirsiniz ki, ictimai rəyə təqdim olunan ekspert dəyərləndirmələri və yaxud sosioloji sorğular bir çox hallarda elə ictimai rəyə təsir məqsədi güdür və təsir vasitəsi olur. Ona görə də burada namizədlərin şansları haqda nəsə söyləmək hələ çox çətindir. Ancaq bir maraqlı rəy var. Mən həmin rəyin hansı tərəfdən, kim tərəfindən səsləndirildiyini xatırlamıram. O şəxs dedi ki, Harris debatı uddu, lakin seçkinin taleyi hələ qeyri-müəyyəndir. 2016-cı il prezident seçkilərində ABŞ-də aparılmış bütün rəy sorğuları, bütün sosioloji araşdırmalar birmənalı şəkildə göstərirdi ki, Hillari Klinton qalib gələcək, amma sonda seçici üstünlüyü Trampa verdi. Ona görə də ABŞ-dəki seçkilərin nəticələri haqda bu gün hansısa qəti bir rəy söyləmək, hesab edirəm ki, qeyri-mümkündür. Dediyim kimi, Amerika mediasında da bu barədə fikir söyləyənlərin, proqnoz verənlərin çoxu əsasən ictimai rəyə təsir məqsədi güdür...

***- Böyük Britaniyanın "Mİ 6" kəşfiyyat xidmətinin rəhbəri Riçard Mur Londonda ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börnslə görüşündən bir həftə sonra sentyabrın 14-də Bakıya gəldi, ADA Universitetində mühazirə oxudu. Bundan bir neçə gün öncə isə sentyabrın 10-da ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin Avropa-Avrasiya Regional Mərkəzinin rəhbəri Patrik Prior Azərbaycanda olmuşdu. Sizcə, dünyanın iki qüdrətli dövlətinin yüksəkçinli kəşfiyyatçılarının ölkəmizə bu səfərlərinin arxasında nələr dayanır?***

- ABŞ hərbi kəşfiyyatının rəhbərlərindən biri olan Patrik Priorun və onun ardınca Britaniyanın "Mİ 6" kəşfiyyat xidmətinin rəhbəri Riçard Murun Azərbaycana səfəri heç də təsadüfi deyil və biz görürük ki, geosiyasi məsələlərdə Londonla Vaşqinqton arasında olduqca intensiv məsləhətləşmələr gedir. Bu məsləhətləşmələrin mərkəzi mövzularından biri də, heç şübhəsiz ki, Cənubi Qafqazdakı vəziyyətdir. Unutmayaq ki, elə bu günlərdə, yəni qeyd edilən səfərlərin ardınca ABŞ Dövlət Katibi Entoni Blinken Prezident İlham Əliyevə zəng edib, ondan iki gün əvvəl isə Ermənistan baş naziri Nikol Paşinyanla danışıb. Bütün bunların ümumi təhlili onu göstərir ki, Cənubi Qafqaz bu gün böyük, qlobal maraqların toqquşduğu mərkəz olmaqla yanaşı, həm də həmin toqquşmanın intensivliyi artmaqdadır. Düşünürəm ki, Bakıya edilən bu səfərlər Azərbaycan rəhbərliyini mümkün risklər, Azərbaycan üçün, bölgə üçün riskli dinamika haqqında həm məlumatlandırmaq, həm də bu barədə məsləhətləşmələr aparmaq məqsədi güdür. Qərb ölkəmizi hələ də potensial partnyor kimi nəzərdən keçirir. O cümlədən, Cənubi Qafqaz və Yaxın Şərq məsələlərində... Əks təqdirdə aparıcı Qərb dövlətləri tərəfindən belə səfərlərə ehtiyac olmazdı, hansısa açıq bəyanatlar verilərdi, Azərbaycanın ünvanına hansısa ittihamlar səsləndirilərdi. Deməli, Qərbdə məsələlərə praqmatik yanaşırlar və düşünürlər ki, əlbəttə, o qarşılıqlı ritorika öz yerində, amma maraqlar tələb edir ki, əməkdaşlıq davam etdirilsin.

> *"Donald Trampla Kamala Harris arasında Pensilvaniya ştatında keçirilmiş debat əslində heç nəyi müəyyənləşdirmədi*

> *Rusiyanın adi silahlı qüvvələri hansı vəziyyətdədirsə, bunu artıq bütün dünya gördü, - nüvə arsenalı da elə həmin durumdadır*

Bu əməkdaşlığın da əsas təməl məsələlərindən biri Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Sülh müqaviləsinin gecikdirilməsi, iki ölkə arasında bu gün sülh müqaviləsi anlamında kompromisin olmaması bölgədə riskləri artırır və müdaxilə imkanlarını genişləndirir.

Düşünürəm ki, səfərlərin başlıca məqsədi bu idi. Təbii ki, biz bu gün hansı danışıqların olması, hansı nəticələrin əldə edilməsi haqda yalnız ehtimal edə bilərik. Hər bir halda müəyyən dinamikanı izləyərək ilkin nəticələrə gələ bilərik. Məsələn, Rusiyanın ən müxtəlif istiqamətlərdə Azərbaycan təzyiqlərinin artması müşahidə olunur. Rusiyadakı Azərbaycan vətəndaşlarının zorla Ukraynadakı işğalçı müharibəyə cəlb edilməsindən tutmuş İran-Rusiya cütlüyünün Xəzərdə hərbi təlimlərə başlamasınadək... Bütün bu məsələləri nəzərdən keçirəndə belə nəticəyə gəlirik ki, sözügedən səfərlər təsadüfən olmayıb. Çox güman ki, bu səfərlər, öncə dediyim kimi, bölgədə eskalasiyadan yayınma yollarının axtarışına həsr olunub. Hələlik bu qədər demək mümkündür...



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

***- ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın baş naziri Keir Starmer arasında aparılan danışıqlardan sonra da Birləşmiş Ştatlar öz silahları ilə Rusiya ərazisini vurmağa icazə vermədi. Bəziləri bunu Qərbin Putinin nüvə zərbəsi hədələrindən qorxması kimi dəyərləndirir. Siz necə düşünürsüz?***

- Ukraynaya ABŞ və Böyük Britaniya silahlarının Rusiyanın ərazisini vurmaq üçün istifadə edilməsinə icazə verilməməsi, rəsmi Vaşinqtonun bu məsələdə müəyyən mənada ehtiyatlı mövqe tutması, hesab edirəm ki, heç də Putinin nüvə hədələrindən irəli gəlmir. Putin administrasiyası Ukraynada düşdüyü vəziyyətdən çıxmaq üçün gah artıq dəfələrlə keçilmiş, heç kəsin əhəmiyyət vermədiyi çoxsaylı "qırmızı xətlər" çəkir, gah da Qərbə, ABŞ-yə nüvə təhdidləri edir.

Hətta bu günlərdə Rusiyanın baş diplomatı Sergey Lavrov özü də istəmədən etiraf etdi ki, artıq "qırmızı xətlər" məsələsi xaricdə məsxərə kimi qəbul olunur... Rusiya hökuməti çətin vəziyyətə düşüb. II Cahan savaşından bəri ilk dəfədir ki, Rusiya ərazisinə xarici dövlət müdaxilə edir. Bu da Rusiyanın Ukraynadakı işğalçı siyasətinə olan cavabdır. Mən Ukrayna ordusunun Kursk vilayətinin müəyyən ərazisini nəzarətə götürməsindən bəhs edirəm...

Bir sözlə, Ukraynaya dediyimiz məsələdə icazə verilməməsinin arxasında başqa səbəblər dayanır. Düşünmürəm ki, ABŞ Putinin nüvə təhdidlərindən çəkinir. Rusiyanın adi silahlı qüvvələri hansı vəziyyətdədirsə, bunu artıq bütün dünya gördü, - nüvə arsenalı da elə həmin durumdadır. Nəzərə alsaq ki, son 30-35 ildə o sahədə, ümumiyyətlə, heç bir inkişaf olmayıb. Təsəvvür edin, Rusiyanın tərifli hipersonik raketləri, hansısa əlçatmaz kontinental raketləri haqqında nağıllar son nəticədə onunla yekunlaşır ki, bütün bu texnologiyalar üzərində işləyən 12 rusiyalı alim "FSB" tərəfindən dövlətə xəyanətdə ittiham olunaraq həbs edilir, uzunmüddətli mühakimə olunur və onlardan 3-ü də həyatını həbsxanada başa vurur. Bu, Rusiyanın uğurlarının hansı səviyyədə olmasının bir əlamətidir. Odur ki, bir daha deyirəm, Qərbin Putinin nüvə hədələrindən qorxmasından danışmağa dəyməz. Sadəcə olaraq Rusiyanı daha da aqressivləşdirmək, onun müharibə coğrafiyasını genişləndirmək istəmirlər. Kreml elə bir vəziyyətdədir ki, o bu gün istənilən düşünülməmiş addım ata bilər. Qərbdə isə gözəl anlayırlar ki, bu, güclərin səpələnməsi, dünyanın daha böyük ərazilərinin münaqişə bölgəsinə çevrilməsi demək olar. Ona görə də Vaşinqton bu məsələdə ehtiyatlı davranır.

***- İki ay əvvəl Pensilvaniya ştatında sui-qəsd cəhdi zamanı qulağından yaralanan ABŞ prezidentliyinə namizəd D.Tramp yenidən Florida qolf klubu yaxınlığında silahlı atışma zamanı sui-qəsd cəhdinə məruz qaldı. Sizcə, bunların Trampın seçkiqabağı reytinqini qaldırmaq üçün Rusiya kəşfiyyatı tərəfindən təşkil edilməsi mümkündürmü? Trampın özünün Rusiya kəşfiyyatı ilə bağlı olması haqda ABŞ siyasi və təhlükəsizlik dairələrində yetərincə şübhələr mövcuddur. Hələ 2017-ci ildə "Vaşinqton-post" bu haqda məqalə dərc etmişdi. 2021-ci ildə "KQB"nin keçmiş casusu, Putinin tələbə yoldaşı Yuri Şvets Trampın 40 il öncədən "KQB" tərəfindən ələ alındığını söyləmişdi, bu günlərdə isə ABŞ Federal Təhqiqatlar Bürosunun keçmiş direktor müavini Endryu Makkeyb bildirdi ki, Donald Tramp Putinlə qarşılıqlı əlaqələrə görə "de-fakto Rusiya agenti" hesab edilə bilər...***

- Açığı, mən düşünmürəm ki, bu, hansısa bir kəşfiyyatın planlaşdırdığı işdir. Nəyə görə? Ona görə ki, Birləşmiş Ştatların əks-kəşfiyyat qurumu olan Federal Təhqiqatlar Bürosu (FTB), istərsə də digər qurumları kifayət qədər peşəkar təhqiqatçılara malikdir və belə bir hal olarsa, şübhəsiz, onu axtarıb ortaya çıxararlar. Bu da Rusiya üçün fəlakətli bir nəticə verər.

Düşünmürəm ki, bu sui-qəsd cəhdi Rusiya, yaxud digərləri tərəfindən Trampın reytinqini qaldırmaq üçün həyata keçirilmiş bir aksiyadır. Burada ABŞ daxilində yaranmış vəziyyəti nəzərə almaq lazımdır. Vəziyyət isə belədir ki, məhz Trampın həmin o sərt, aşağılayıcı, bölücü ritorikası Amerika cəmiyyətində ifrat bir qütbləşməyə səbəb olub və bu yeni bir fenomen deyil.

Tramp 2016-cı ildə prezident seçkilərinə qatılanda artıq ABŞ siyasətinə təzə bir trend gətirdi: aşağı ayarlı, sərt ritorika, bölücülük, nifrət yaratmaq... Bu gün də bir çox insanlar düşünürlər ki. Trampın, ümumiyyətlə, nəinki prezident olmaq ehtimalı, siyasi arenada olması Amerika dövləti və xalqı üçün ciddi təhdidlər yaradır. Nifrət qarşılıqlı nifrət doğurur. Bəzən insanlar da bundan belə nəticə çıxarır ki, o bir qəhrəmanlıq etməli və Trampı aradan götürməlidir.

Bu mənada hesab edirəm ki, söhbət, böyük ehtimalla daha çox şəxsi təşəbbüsdən gedir. Tramp öz yürütdüyü siyasətin, əgər buna siyasət demək mümkünsə, öz avantürizminin, öz ifrat ekstremizminin hədəfinə gəlir, qurbanına çevrilir. Düşünmürəm, burada Rusiyanın dəst-xətti var. Rusiya kəşfiyyat qurumlarının belə riskə gedəcəyinə də inanmıram. ABŞ-nin bu sahədə gücü yetərincədir ki, istənilən bir cinayətin kökünü açıb ortalığa qoysun...

Yuri Şvetsin Trampın haqqında dediklərini də ciddi qəbul etmirəm. Bir daha deyirəm ki, ortada sübut yoxdursa, ortada fakt yoxdursa, bunlar hamısı boş söhbətlərdir. Mən, ümumiyyətlə, Yuri Şvetsin bugünədək Rusiya xüsusi xidmət orqanlarına bağlı olduğunu düşünürəm. Bu fiqurun fəaliyyəti olduqca şübhəlidir. Mənə bu mənada bir şey təəccüblü gəlir ki, görəsən, Amerika xüsusi xidmət orqanlarında bunu anlamırlarmı... Yəqin ki, anlayırlar, yəqin ki, bilirlər, ancaq Şvetsin fəaliyyəti o qədər də ziyan vurmadığından hələlik ona dəyib-dolaşmırlar. Yenə deyirəm ki, mənim üçün Yuri Şvets etibarlı mənbə sayılmır...

***- Sizcə, İsrail-Fələstin müharibəsi hansı halda dayana bilər?***

- Netanyahunun Qəzzada Fələstin xalqına qarşı apardığı siyasət ABŞ-dəki prezident seçkilərindən sonra bitəcək. Təbii ki, Donald Tramp qalib gəlməzsə. Tramp qalib gələcəyi halda, bu münaqişənin miqyası bir qədər də böyüyə bilər, hətta İordan çayının Qərb sahilinə, yəni Ramallaha keçə bilər - harada ki, Fələstin muxtariyyəti mövcuddur. Trampın bu istiqamətdə, Yaxın Şərqdəki siyasəti ifrat dərəcədə birqütblüdür. Yox, əgər seçkilərdə demokratlar, yəni Kamala Xarris qalib gələrsə, Netanyahu nəinki bunu dayandırmağa, hətta hakimiyyətdən getməyə məcbur ola bilər. İstənilən halda ABŞ-nin də bu işdə iştirakı olacaqdır. Görünən budur ki, hələ İsraildəki etirazlar Netanyahunun hakimiyyətdən getməsi üçün yetərli deyil...

✍ ***Sultan Laçın***



**■ Baş nazir Əli Əsədovun imzaladığı Qərarla noyabrda iş və istirahət günlərinin yeri dəyişdirilib. 12 və 13 noyabr iş günləri ilə müvafiq olaraq 16 və 23 noyabr istirahət günlərinin yerləri dəyişdirilib.**

Yeni qərarla noyabrda qeyri-iş günlərinin sayı artıb. Belə ki, 8 Noyabr - Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günüdür. Əmək Məcəlləsinə əsasən, həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir. 9 noyabr şənbə gününə təsadüf etdiyi üçün həftənin bazar ertəsi - 11 noyabr da qeyri-iş günü olacaq. Beləliklə, iş və istirahət günlərinin yerinin dəyişdirilməsi ilə əlaqədar noyabrda 6 gün ardıcıl - 8, 9, 10, 11, 12, 13 qeyri-iş günləri olacaq.



**■ Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta bazarına satış yönlü müdaxiləsi istisna olunmur. Bu barədə AMB məlumat yayıb.**

Bildirilib ki, cari ilin 8 ayında dövlətin birbaşa valyuta xərclərinin (o cümlədən xarici dövlət borcuna xidmət) artımı, eləcə də ölkədə fəaliyyət göstərən müəssisələr tərəfindən ticarət kreditləri üzrə öhdəliklərin azaldılması ilə bağlı artan valyuta tələbi Mərkəzi Bankın təşkil etdiyi valyuta hərraclarında tam təmin edilib: "İlin qalan dövründə dövlətin birbaşa xarici valyutada artan xərclərinin (COP29 və digər dövlət xərcləri) icrasına dəstək məqsədilə Mərkəzi Bankın valyuta bazarına satış yönlü müdaxiləsi istisna olunmur.




**■ Azərbaycanda inflyasiyanın xarici fonu ümumilikdə sabitdir. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) açıqlamasında bildirilir.**

Məlumata görə, avqust-sentyabr aylarında illik inflyasiya yüksəlsə də, hədəf diapazonu (4±2%) daxilində olub. Belə ki, 2024-cü ilin avqust ayında 12 aylıq inflyasiya 3,5 %, ərzaq malları üzrə inflyasiya 3 %, qeyri-ərzaq malları üzrə 1,8 %, xidmətlər üzrə 5,6 % təşkil edib. Dünyada inflyasiya təzyiqlərinin azalması şəraitində aparıcı ölkələrdə mərkəzi bankların faizləri tədricən azaldacağı ehtimalı yüksəlir. İnflyasiyanı artıra biləcək daxili risk faktorlarına isə xərc amillərinin aktivləşməsi, habelə büdcə xərclərinin artımı (cari ilin 8 ayında ötən ilin eyni dövrü ilə müqayisədə 8,3 %) və kredit qoyuluşlarının genişlənməsi vasitəsilə məcmu tələbin izafi artımı aiddir.



**■ Orta dəhliz Qazaxıstan ərazisindən keçməklə, yük axınının fəal artımını nümayiş etdirir. Bu sözləri Qazaxıstanın "NurZhol-Company" şirkətinin Müşahidə Şurasının həmsədri və "KazGrain" Milli İxracatçılar Assosiasiyasının rəhbəri Kanat Kobessov deyib.**

O, bildirib ki, mövcud iqtisadi çətinliklərə baxmayaraq, qlobal ticarətin qarşıdakı illərdə hər il artacağı proqnozlaşdırılır: "Son illərdə Avrasiya regionu dünya nəqliyyat sisteminin getdikcə daha əhəmiyyətli bir hissəsinə çevrilir və bu prosesdə üç əsas dəhliz mühüm rol oynayır. Şərqi Rusiyadan keçən Şimal dəhlizi geosiyasi və iqtisadi dəyişikliklər səbəbindən mövqeyini itirir. Qazaxıstan ərazisindən keçən Orta dəhliz isə əksinə, fəal artım nümayiş etdirir.



**■ Tələbələrə nəqliyyatda güzəştlərin edilməsi ilə bağlı müəyyən qurumlara sorğular ünvanlanıb, danışıqlar aparılır.**

Bu barədə Trend-ə Təhsilin İnkişafı Fondundan məlumat verilib. "Amma hələ qəti bir nəticə yoxdur deyə, sırf nəqliyyatla bağlı nəsə demək tezdir. Onu demək olar ki, 150 min vahid tələbə kartı artıq sifariş verilib, universitetlərlə müqavilələr imzalanır, bu proses davam edir. Təxminən oktyabr ayının ortalarında kartlar tələbələrə veriləcək", - deyə əlavə edilib.

Qeyd edək ki, iyunun 27-də Davamlı İnkişaf Mərkəzində Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə "VISA" beynəlxalq ödəmə texnologiyaları şirkəti tərəfindən ali təhsil müəssisələrinin rəhbər heyəti üçün universitetlərdə vahid tələbə kartının yaradılması layihəsinin təqdimatı keçirilib.



**■ Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri və hərbi attaşeləri bu gün Kəlbəcərə səfər çərçivəsində "İstisu" mineral su zavodunda olub.**

Qonaqlar müəssisə ilə yaxından tanış olub, istehsal prosesini izləyiblər. Diplomatlara məlumat verilib ki, "İstisu" mineral su zavodu uzun illər Kəlbəcərin keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyu 30 illik müddətdən sonra yenidən istehsal etməyə başlayıb. Bildirilib ki, Kəlbəcər rayonunda "İstisu" mineral suyunun istehsalına ilk dəfə 1976-cı ildə başlanılıb. Lakin torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə əlaqədar 30 il ərzində istehsal dayanıb.

# Bir barel üçün 70 dollar

***Bu il üzrə neftin orta qiyməti Azərbaycan üçün komfortludur. Bunu Azərbaycan Mərkəzi Bankının Statistika Departamentinin direktoru Samir Nəsirov deyib. O həmçinin, devalvasiya gözləntiləri ilə bağlı məsələyə aydınlıq gətirib: "AMB təhlil aparmaq üçün fundamental göstəricilərə baxmalıdır. Fundamental göstəricilərin ən vacib elementi ölkənin ödəmə balansı olan tədiyyə balansıdır. Bu ilin yarısı üzrə böyük həcmdə öhdəliklərin icra edilməsinə baxmayaraq ehtiyat aktivlər 648 milyon dollar artırıb. O cümlədən xarici ticarət balansı ilə bağlı müsbət göstəricilər ümumi mənzərəni bizə aydınlaşdırır. Ona görə də yayılan məlumatları düzgün hesab etmirəm".***



## İqtisadiyyat



**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin sədri

Yeri gəlmişkən, Azərbaycanın 2025-ci il üzrə dövlət büdcəsinin ilkin göstəriciləri açıqlanıb. Maliyyə Nazirliyinin hesabatına görə, 2025-ci ildə Azərbaycanın dövlət büdcəsində neftin qiyməti 70 dollardan götürülüb. Nazirliyin açıqlamasında bildirilir ki, 2025-ci ildə xam neftin bir barrelinin orta illik ixrac qiyməti 70 ABŞ dolları səviyyəsində götürülüb.

Xatırladaq ki, 2024-cü ildə büdcədə neftin qiyməti əvvəlcə 60 dollar götürülsə də, sonradan may ayında büdcəyə edilən dəyişikliklər çərçivəsində bu qiymət 75 dollar qaldırıldı. Həmin vaxt bu qiymət təhlükəsiz görünsə də, son həftələr dünya bazarında neftin qiyməti kəskin azalıb və 75-76 dollara enib. Hətta bir neçə gün əvvəl Azərbaycan neftinin qiyməti 73 dollara, yəni büdcədəki həddən 2 dollar aşağı düşüb. Görünür, bunu nəzərə alan hökumət ehtiyatlı davranaraq neftin qiymətini 70 dollardan nəzərdə tutub.

Müşahidələr göstərir ki, son vaxtlar neft bazarında nəzərəçarpan qeyri-müəyyənliyin və qiymətlərin kəskin enməsinin bilavasitə səbəbi Səudiyyə Ərəbistanı və Rusiya da daxil olmaqla bir sıra əsas OPEC+ iştirakçılarının oktyabr ayında dünya bazarına neft tədarükünü tədricən artırmağa başlamaq qərarı olub. Bu qərar ABŞ və Çində iqtisadi dinamikanın pisləşməsi və müvafiq olaraq onların neftə olan tələbatının ehtimal olunan azalması ilə açıq şəkildə ziddiyyət təşkil edirdi.

Düzdür, həmin çöküşdən sonra qiymətlər bir qədər bərpa olundu, təxminən, 87,5 dollaradək yüksəldi. Sonra vəziyyət dəyişməyə başladı. İyulun 5-dən başlayaraq neftin qiyməti yenidən aşağı düşməyə başlayıb. Hazırda, təxminən 75-76 dollar səviyyəsindədir. Eyni zamanda, bir çox treyder kotirovkaların daha da aşağı düşməsi ehtimalının yüksək olduğunu bildirib.

Təbii ki, neftin qiymətinin dünya bazarında azalması Azərbaycana da təsir edir. Neftin dünya bazar qiyməti Azərbaycana daxil olan valyutanın həcmi baxımdan vacibdir. Ölkə ixracatının, təxminən, 80 faizini neft və neft məhsulları təşkil edir. Buna görə neftin qiyməti bir tərəfdən gəlirlərimiz, digər tərəfdən ölkəyə valyutanın daxil olması baxımından əhəmiyyətlidir.

■ **Mövzu ilə bağlı Neft Araşdırmaları Mərkəzinin sədri İlham Şaban bildirib ki, hazırda neftin qiyməti bazar üçün kifayət qədər yüksəkdir:** "Ümumilikdə götürsək, avqust ayında orta qiymət 80 dollar ətrafında olub. Ötən ilin sonu, cari ilin əvvəlində verilən proqnozlara baxsaq, göstəricilər gözləntilərdən kifayət qədər yüksəkdir. Proqnozlar onu göstərirdi ki, cari il üçün neftin orta qiyməti 82 dollardan aşağı olacaq və 2022-ci ildəki orta qiymətdən təqribən 2-2,5 dollar neftin qiyməti azalacaq. İlin birinci yarısı neftin orta qiyməti 85 dollardan bir qədər artıq oldu. Bu, cari il üçün deyərdim ki, kifayət qədər optimist qiymətdir. Bundansonrakı aylarda qiymət 80 dollar ətrafında olsa, ötənilki səviyyədən heç də fərqlənməyəcək. Bazar üçün kifayət qədər yüksək qiymətlərdir. Sual olunur: 84, 85, hətta 83 dollar ətrafında qiymətlərin bazarda özünü iki il ərzində bərqərar etməsi stabilliyin əmələ gəldiyinə dəlalət edirmi? 2022-ci ildə neftin qiyməti 102 dollar oldu. Bundan sonra gələn iki ildə də qiymətin 85 dollar ətrafında olması risk göstəricisidir. 2022-ci ildə risk faktoru daha çox idi".

İ.Şaban vurğulayır ki, cari ilin sonuna qədər neft qiymətlərinin 80-85 dollar aralığında qalması böyük ehtimaldır: "İqlim faktorunun, hava şəraitinin necə olacağı, Rusiya-Ukrayna müharibəsinin bitib-bitməməsi, eləcə də Yaxın Şərqdə stabilliyin nə zaman əldə ediləcəyi kimi məsələlər önəmlidir. Münaqişələrin coğrafiyası kifayət qədər genişdir.

Müharibələr dövlətlərin kifayət qədər maliyyə və iqtisadi resurslarını özünə cəlb edir. Bu baxımdan da neftin qiymətinin stabil qalması bir çox faktorlardan asılıdır. İndi onu proqnoz etmək müşkül məsələdir. Buna görə də daha çox orta və qısamüddətli proqnozlara üstünlük vermək olar. Neftin qiymətini cari ilin sonuna qədər 80-85 dollar dəhlizində qoruyacağı ehtimalı daha böyükdür".

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Vüqar Bayramov deyir ki, 2024-cü ilin dövlət büdcəsinə edilən dürüstləşmələrdən sonra əsas maliyyə sənədində neftin qiyməti 60 dollardan 75 dollaradək artırıldı:** "Hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır. Doğrudur, 2024-cü ilin geridə qalan ayları üzrə neftin orta qiymətini nəzərə aldıqda mövcud bazar tarazlığı fiskal gəlirlərimiz üçün risk formalaşdırmır. Amma neft ölkəyə valyuta daxil olmasına xüsusi təkan verdiyi üçün 2024-cü ildə ölkəyə daxil olan vəsaitin həcmi, eləcə də tədiyyə balansımızın vəziyyəti birbaşa neftin dünya bazarının qiymətindən asılı olacaq".

“

*Cari ilin sonuna qədər neft qiymətlərinin 80-85 dollar aralığında qalması böyük ehtimaldır*

*Hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır*



**Vüqar Bayramov,**
iqtisadçı-ekspert

***Sevinc***

# Qızılca təhlükəsi

**Azərbaycanda yeni dərs ili başlayıb. Hər kəsi narahat edən sual odur ki, məktəblər, universitetlər açılandan sonra qızılca, suçiçəyinə yoluxma sayı çoxalacaqmı? Yeri gəlmişkən, Azərbaycanda ötən ilin yanvar-noyabr aylarında 1 493 nəfər qızılcaya yoluxub. Ölkədə ötən il qızılcaya yoluxanlar arasında ağırlaşma və ölüm hallarına da rast gəlinib. Ölüm halları əsasən, uşaqlar və tələbələr arasında qeydə alınıb.**



Bəs, görəsən, bu il sözügedən təhlükənin qarşısını almağa hazırıqmı? Mövzunu qəzetimizə şərh edən infeksionist-hepatoloq Mərdan Əliyev deyib ki, hazırda ölkədə epidemioloji vəziyyət qənaətbəxşdir: "Amma nəzərə almaq lazımdır ki, qarşıdan payız fəsli gəlir. Payız mövsümündə daha çox yuxarı tənəffüs yolu xəstəliklərini müşahidə edirik. Biz buna kəskin respirator virus infeksiyaları deyirik. Bu xəstəliklər daha çox havadamcı yolu ilə yayılır, əsasən payız və qış mövsümü xəstəlikləridir. Belə xəstəliklərə əsasən qrip daxildir. O ki qaldı qızılca və suçiçəyinə bu xəstəliyin qarşısını peyvəndlə almaq mümkündür. Yəni peyvənd olunma səviyyəsi yüksək olan yerlərdə qızılcaya yoluxma sayı az, peyvənd olunma səviyyəsi az olan yerlərdə qızılcaya yoluxma yüksək olur.

Qızılca xəstəliyi koronavirus xəstəliyi kimi deyil, koronavirusda alovlanma aylarla, illərlə davam etdi. Qızılca xəstəliyi koronavirusdan 10-20 dəfə daha sürətli yoluxma qabiliyyətinə malik olduğu kimi, burada alovlanma da, sönmə də sürətli baş verdi. Buna görə hazırda qızılcaya, suçiçəyinə yoluxma halları xeyli azalıb. Amma valideynlər yenə də diqqətli olmalıdırlar və peyvəndləmə təqviminə riayət etməlidirlər".

Ekspert qeyd edib ki, uşaqlar doğulduqdan sonra planlı şəkildə peyvəndlənmə aparılmalıdır: "Azərbaycanda "Milli Təqvim Planı" adlı proqram hazırlanıb və sənəddə, qızılca, məxmərək, epidemik parotit kimi viruslara qarşı da peyvəndlərin vurulması nəzərdə tutulub. Əgər 2 və ya 3 il əvvəldən qızılcaya qarşı vaksinasiya aparılsaydı, biz qızılca, suçiçəyi ilə bağlı ciddi alovlanmanı müşahidə etməzdik. İnsanlar yoluxsaydı belə xəstəliyi yüngül keçirərdi. Bu planlı bir təqvimdir, valideynlər həmin təqvimə əməl etsələr, uşaqlarına təqvim planına uyğun şəkildə peyvənd vurdursalar, bağça, məktəb kimi müəssisələrdə belə hallara rast gəlinməz".

“

*Payız mövsümündə daha çox yuxarı tənəffüs yolu xəstəliklərini müşahidə edirik*

***Rəna***



# Qalan pulu hara xərcləyək?

***2024-cü ilin yanvar-avqust aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 23.5 faiz artaraq 25 milyard 223,4 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin səkkiz ayında büdcənin xərcləri isə 8.3 faiz artaraq 22 milyard 362,4 milyon manata yüksəlib. Bu ilin ilk səkkiz ayında dövlət büdcəsinin profisiti 2 milyard 861,0 milyon manat təşkil edib. 2023-cü ilin eyni dövründə 218,5 milyon manat büdcə kəsiri qeydə alınmışdı. Bəs, görəsən, dövlət büdcəsində profisitin yaranmasına səbəb nədir? Büdcədə yaranan qalıq vəsait hansı istiqamətlərə xərclənə bilər?***

## Büdcə

■ **Mövzu lə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov deyib ki, dövlət büdcəsinin icrasında profisitin yaranmasında müxtəlif səbəblər var:**

"Sözsüz ki, bunlardan ən başlıcası neftin ixrac qiymətinin səmərəli olmasıdır. Ümumiyyətlə, neftin dünya bazar qiymətləri yüksək qaldığından büdcə gəlirlərimiz nəzərdə tutulandan artıqdır. Ancaq dövlət büdcəsinin icrasında profisitin yaranmasında digər səbəblər də var. Birincisi, son illər ərzində ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində budcə-vergi (fiskal) siyasəti təkmilləşib. Üstəgəl, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, həmçinin Dövlət Gömrük Komitəsinin iş üslublarında və yığım mexanizmlərində də kifayət qədər böyük keyfiyyət dəyişiklikləri baş verib. İkinci səbəb qeyri-neft-qaz sektorunun inkişafıdır.

Bu çox önəmli faktordur. İqtisadiyyatda şəffaflığın genişlənməsi və kölgə iqtisadiyyatına qarşı mübarizənin güclənməsi nəticəsində açıq rəqabət mühitinin yaranması dövlət büdcəsinə proqnozlaşdırılan gəlirlərin qeyri-neft-qaz sektorundan vergilərin hesabına artması üçün geniş yol açıb.

Ümumiyyətlə, ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün bütün zəruri vasitələr və siyasət həyata keçirilir ki, xüsusən də 2014-2015-ci illərdə dünyada neftin qiymətinin kəskin şəkildə enməsi səbəbindən 2015-ci ildə manatın məzənnəsinin iki dəfə devalivasiyasından sonra bu, vacib bir məqsədə çevirib. Düzdür, bazar iqtisadiyyatı sistemi ölkələrində dövlət büdcəsinin icrasında profisit adətən, normal sayılmasa da, bizdə iqtisadiyyata dövlət nəzarəti yüksək olduğundan, büdcənin icrasında profisit məqbul hesab edilir".

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, büdcəyə gələn pullar xərclənən pullardan çox olduğu üçün büdcə qalığı formalaşır:**

"Büdcə profisitinin müsbət və mənfi tərəflərini müəyyən etmək üçün öncə səbəblərini araşdırmaq lazımdır. Büdcə profisiti hər şey demək deyil. Lazımlı xərcləri etmədən də büdcə profisitinə nail ola bilərsən, amma bu o qədər də yaxşı hesab olunan vəziyyət deyil.

Əgər büdcə profisiti gəlirlərin artımı fonunda baş verirsə, bu, yaxşı hal sayılır. Amma gəlirlərin mənbəyi də müzakirə ediləsi mövzudur. Neftin qiymətinin artması hesabına büdcə profisiti yaranarsa, bu da ölkə iqtisadiyyatının stabilliyinə dəlalət etmir".

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Eyyub Kərimli isə vurğulayıb ki, ötən il və ondan əvvəlki ildə olduğu kimi bu ildə büdcə profisiti ilə üzləşməyimiz müsbət hadisə kimi dəyərləndirilə bilər:**

"Bu o deməkdir ki, ölkəmizdə makroiqtisadi göstəricilərimiz sabitdir. Büdcə gəlirləri davamlı olaraq artır. Baxmayaraq ki, neft hasilatında azalma var. Bununla belə qeyri-neft sektorunun inkişafı hesabına gəlirlərimiz artır. Bu da iqtisadiyyatımızın daha dayanıqlı və inkişafda olduğunu göstərir.

Ötən illərin təcrübəsinə baxsaq görərik ki, həmin illərdə də profisit var idi. Həmin illərdə artıq vəsait əsasən bir neçə istiqamətdə xərcləndi. Bu istiqamətlər əsasən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, müdafiə xərcləri və digər sahələr idi. Hesab edirəm ki, bu dəfə də Böyük Qayıdış üçün vəsaitlər daha da artırılacaq. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının inkişafına daha çox investisiya yatırılacaq. Bildiyimiz ki, hələki sülh sazişi imzalanmayıb. Ona görə də müdafiə xərclərinin artırılması da gözləniləndir. Üçüncü istiqamətsə təbii ki, sosial məsələlərdir. Yəqin ki, əhalinin sosial müdafiəsi üçün də xərclər artırılacaq".

“

*Açıq rəqabət mühitinin yaranması dövlət büdcəsinə proqnozlaşdırılan gəlirlərin qeyri-neft-qaz sektorundan vergilərin hesabına artması üçün geniş yol açıb*

*Əgər büdcə profisiti gəlirlərin artımı fonunda baş verirsə, bu, yaxşı hal sayılır*

*Bu o deməkdir ki, ölkəmizdə makroiqtisadi göstəricilərimiz sabitdir*

***Müşfiq***

# Reablitasiya mərkəzləri monitorinqdən keçirilməlidir

***Bu** yaxınlarda sosial şəbəkələrdə Zaqatalada 3 yaşlı autizm xəstəsi olan uşağının reabilitasiya mərkəzində şiddətə məruz qalması barədə videogörüntülər yayılıb. Azyaşlının anası Vəfa Həsənova bildirib ki, uşağına reabilitasiya təlimi keçən əməkdaş qızına qarşı zorakılıq edib: "Pəncərədən izləyib gördüm ki, qızımın ayağına şillə vurur. Mərkəzə müraciət etdim. Dedilər ki, tədbir görəcəyik. Axşam isə mərkəzin direktoru mənə zəng edib dedi ki, bu barədə heç yerdə danışma, yoluna qoyarıq. Görüntülərə baxanda gördük ki, Xədicənin təkcə dizinə yox, üzünə də şillə vurulub".*



## Sosial

Reabilitasiya Mərkəzinin rəhbərliyi şiddətlə bağlı yayılan görüntüləri təkzib etsə də, reallıq bundan ibarətdir ki, belə mərkəzlərdən bu kimi görüntülərin yayılması ilk hal deyil. İl ərzində sosial mediada bu cür çoxsaylı videolara rast gəlmək olar.

Bəs, görəsən, belə mərkəzlərdə işə qəbul hansı formada həyata keçirilir? İşə qəbul zamanı hansı məqamlara diqqət yetirmək lazımdır ki, sonradan neqativ hallar ortaya çıxmasın? Bu prosesə nəzarət varmı?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyinin sədri Çiçək Məmmədli bildirib ki, belə hallara əksər reabilitasiya mərkəzlərində rast gəlinir:**

"Reablitasiya mərkəzlərinə nəzarət olmadığından bu tip məkanların sayı günü-gündən artır. Artıq hər metrostansiyanın çıxışında belə bəzəkli mərkəzlər açılıb. Bütün şəraiti olan reablitasiya mərkəzləri gəlir mənbəyinə çevrilib. Amma reablitasiya mərkəzlərində çalışanların mütəxəssis olub-olmadığı heç kəsi maraqlandırmır. Bu sahəyə nəzarətsizlik o həddədir ki, manikür ustası, mağazada satıcı işləyənlər də gəlib defektoloq, loqoped işləyir".

Ç.Məmmədli vurğulayıb ki, reablitasiya mərkəzləri monitorinqdən keçirilməlidir: "Monitorinq zamanı reablitasiya mərkəzlərində işləyən şəxslərin diplomunun olub-olmadığı, nəzəri və praktiki bilikləri yoxlanılmalıdır. Çünki, burada söhbət danışa bilməyən, davranış pozğunluğu olan uşaqlardan gedir. Həmin şəxslərin psixoloji vəziyyəti normal olmalıdır ki, həssas qruplarla işləyə bilsinlər. Burada uşaqların taleyi məsələsi önə çıxardılmalıdır. Təəssüf ki, Azərbaycanda kimin pulu var, həmin adam biznes məqsədilə reablitasiya mərkəzi açır. Bu qanunsuzluğun qarşısı alınmalıdır".

Ekspert bildirib ki, hökumət qurumları reabilitasiya mərkəzlərinin işinə nəzarət etməsə, belə neqativ hallar davam edəcək. Onun sözlərinə görə, reablitasiya mərkəzləri fəaliyyət göstərmək üçün heç bir qurumdan lisenziya almır. Onların çoxu QHT kimi qeydiyyatdan keçərək fəaliyyət göstərir. Həmsöhbətimiz deyir ki, defektoloq, loqopedlər işə bir ay sınaq müddəti ilə götürülməlidirlər. Bir aydan sonra onlar imtahandan keçirilməli, uşaqlara qarşı davranışları qiymətləndirilməlidir. Yalnız bundan sonra işə qəbul edilməlidirlər: "Defektoloq və loqopedlərin nəzəri və praktik biliyi olmalıdır. Çünki, autizmin beş növünün hər birində davranış pozuntusu olur. Belə uşaqlarla işləmək o qədər də asan deyil. Azərbaycanda çox az sayda reablitasiya mərkəzi var ki, orada Autizm Spektr Pozuntusu uşaqlarla Türkiyədəki qayda ilə reablitasiya işləri aparılır. Türk üsulu ilə reablitasiyada daha çox psixoloji təlimlərə üstünlük verilir. Ən sonda uşağın danışması üçün defoktoloji iş aparılır. Azərbaycanda isə əksər reablitasiya mərkəzləri uşaqlarda davranış pozğunluğunu aradan qaldırmamış onları danışmağa məcbur edirlər. Bu zaman isə zorakılıq üsullarından istifadə edirlər. Bu üsul dünyada qəbul edilmir. Bu uşaqlarda kəskin hiperaktivlik olduğundan, onlar əllərinə keçən hər əşyanı qırıb dağıdırlar. Türkiyədə belə uşaqlara reablitasiya mərkəzlərində təlimlərlə davranış qaydaları öyrədilir. Onlar əvvəlcə telefonla, əşyalarla, hətta insanlarla necə davranmalı olduqlarını öyrənirlər. Bundan sonra onlarda danışıq vərdişləri formalaşdırılır. Bizdə isə valideynlər də, loqoped və defektoloqlardan tələb edir ki, ilk növbədə uşaqda nitq qüsuru aradan qalxsın. Bu səhv reablitasiya nəticəsində zorakılıq görüntüləri ortaya çıxır".

*Hökumət qurumları reabilitasiya mərkəzlərinin işinə nəzarət etməsə, belə neqativ hallar davam edəcək*

*Reablitasiya mərkəzlərində çalışanların çoxu ixtisasları üzrə işləmir*

Ekspert qeyd edib ki, bu sahənin tənzimlənməsi istiqaməti üçün hökumətə müvafiq təkliflər verib: "Amma hələ ki, təkliflərə baxan yoxdur".

■ **Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə bildirib ki, reablitasiya mərkəzlərində çalışanların çoxu ixtisasları üzrə işləmir:** "Uşaqlarla işləyən kadrların işlədiyi proqramlara da nəzarət edilməlidir. Bilinməlidir ki, bu uşaqların reablitasiyası üçün hansı proqramdan istifadə edilir. Eyni zamanda, belə mərkəzlərə Nazirlər Kabineti tərəfindən nəzarətedici qurum müəyyənləşdirilməlidir ki, lisenziyalaşdırılsın".

*Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏRHUMU



Görkəmli ictimai xadim, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarova vəfat edib. Fatma Səttarova 102 yaşında dünyasını dəyişib. Qeyd edək ki, "İstiqlal" ordenli F.Səttarova, həm də Prezident təqaüdçüsü idi. O, bu ilin fevralında keçirilən prezident seçkilərində seçki məntəqəsinə gedərək səs vermişdi.

### Həftənin KÖÇÜ



Xankəndi Qarabağ Universitetinin ilk tələbələrini qarşılayıb. Tələbələr bir neçə gün əlavə vaxtlarının olmasından istifadə edərək Xankəndi şəhəri və ətraf ərazilərlə tanış olublar. Onu da deyək ki, tələbələr öz yaşadıqları bölgələrdən gələrkən onları 2 nəfər ailə üzvü müşayiət edə bilər. Qeyd edək ki, ilk tədris ilində Qarabağ Universitetində 1104 tələbə təhsil alacaq.

### Həftənin GÖZƏLİ



"Miss Turkey 2024"ün qalibi İdil Bilgen yarışmadan sonra tənqidlərə məruz qalıb. 24 yaşlı model "NOW TV"də Çağla Şikəlin qonağı olub. Türkiyənin Ukraynadakı səfiri Mustafa Levent Bilgenin qızı olduğu ortaya çıxan Bilgen verilişdə tapşırılması ilə bağlı iddialara aydınlıq gətirib. Tibb fakültəsi məzunu, 24 yaşlı İdil Bilgen şərhlərdə onu alçaldanlara cavab verib.

### Həftənin DÖYÜLƏNİ



Müğənni Kərim Abbasov toyda döyülməsindən sonra ilk dəfə açıqlama verib. Sənətçi xoşagəlməz hadisə haqda "Elgizlə izlə" verilişində danışıb. O bildirib ki, səhnədə olan zaman həmin şəxslərdən biri sənətçinin əlindən mikrofonu alıb, onunla bərabər mahnı ifa etmək istəyib. Həmin vaxt Kərim Abbasov icazəsiz səhnəyə gələn qonağa mahnının fonoqram olduğunu bildirib. Onun sözlərinə görə, toy başa çatdıqdan sonra həmin kişi və özünü onun qohumu kimi təqdim edən şəxs müğənniyə fonoqram oxuduğuna görə, hücum çəkiblər.

### Həftənin JESTİ



Fransa millisinin və "Real Madrid" klubunun futbolçusu Kilian Mbappe hərəkəti ilə gündəmə gəlib. O, İspaniya çempionatının 5-ci turu çərçivəsində "Real Sosyedad"la səfər oyununda (2:0) əvəzləndikdən sonra topdaşıyan uşağa jest edib. 26 yaşlı fransız forvard ehtiyat oyunçular skamyasına əyləşdikdən sonra topdaşıyan uşağa formasını bağışlayıb.

### Həftənin QAYIDIŞI



Uels şahzadəsi Keyt Middlton kimyaterapiya kursunu bitirdikdən sonra ilk işgüzar görüşünü keçirib. Bildirilir ki, görüş Vindzor qəsrində baş tutub. Tədbirdə Şahzadə Uilyamın xeyriyyəçi Kral Fondunun üzvləri iştirak ediblər. Uels şahzadəsi sonuncu dəfə ötən ilin dekabrında belə tədbirlərdə iştirak edib. Kral ailəsinin özü görüşün təfərrüatlarını açıqlamayıb. Xatırladaq ki, Middltona bu ilin mart ayında ona xərçəng diaqnozu qoyulduğunu açıqlayıb.

*Azad Əliyev*

# "Bakcell"dən abunəçilərə geniş seçim imkanı verən "Star" tarifi ®

**İnnovasiya və sürət lideri "Bakcell" danışıq dəqiqləri, internet və digər imkanları özündə birləşdirən "Star" tarifini təqdim edir. Abunəçilər 9 fərqli kateqoriyada təklif olunan tarifi seçməklə əlavə internet bonusları da əldə edəcəklər.**

"Star" tarifinə qoşulan abunəçilər ölkədaxili zənglər üçün dəqiqələr və internetlə yanaşı, "WhatsApp" və "Telegram" tətbiqlərində yazışmaları ödənişsiz həyata keçirəcəklər. Üstəlik, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra hər növbəti yenilənmə zamanı abunəçilərə əlavə internet bonusları təqdim olunacaq. Məsələn, "Star 6GB" tarifinə 550 danışıq dəqiqəsi, 6GB internet balansı və "WhatsApp" və "Telegram" tətbiqlərində ödənişsiz mətn yazışmaları daxildir. Bundan əlavə, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra abunəçilərə hər yenilənmə zamanı əlavə "2GB" internet bonus olaraq təqdim olunacaq. "Star 6GB" tarifinə "*600#YES" kodunu yığmaqla asanlıqla keçmək olar. Tarif paketinin dəyəri 14,90 AZN-dir. Cari tarifdən "Star" tarifinə keçid tamamilə ödənişsizdir.




Qeyd edək ki, 9 fərqli kateqoriyada təqdim olunan "Star" tarifi barədə ətraflı məlumatı "Bakcell"in saytından əldə etmək mümkündür.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## GÜNÜN FOTOSU



**Tanınmış səyyahlar Karl Busbi və Anjela Maksvel Xəzər dənizini üzüb keçərək Aktaudan Bakıya gəliblər**

# Evlənənlərin sayı azalır

**Fərqanə Mehmanqızı,** psixoloq

Son vaxtlar evliliklərin azalmasının deyil, boşanmaların artmasının əsas səbəbini araşdırmağa ehtiyac var.

Səh. 4

## STATİSTİKA



■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin 8 ayında əlilliyi olan 80 min şəxsə reabilitasiya xidmətləri göstərilib.**

Onlardan 41,4 mini ambulator, 19,9 mini stasionar və icma əsaslı, digərləri səyyar və onlayn formada, sosial-psixoloji, habelə ippoterapiya istiqaməti üzrə reabilitasiya xidmətləri ilə təmin edilib.



Səh. 7

# Qızılca təhlükəsi